Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

7
FEVRAL
2019-cu il

№ 25 (3923)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# CİNAYƏTKAR ERMƏNİYƏ BÜST MƏSƏLƏSİ GÜRCÜSTAN PARLAMENTİNDƏ QALDIRILANDA ÜÇ AZƏRBAYCANLI DEPUTAT ZALDAN QAÇDI...

səh. 5

*Soydaşlarımızın Avaqyanın büstünün sökülməsinə nail olmaq üçün Gürcüstan parlamenti qarşısında keçirmək istədiyi aksiyaya icazə verilməyib*

Azərbaycanın Rusiya ilə birlikdə qonşulara nümunə göstərdiyi növbəti dəfə səsləndirildi...

səh. 3

Rusiya Pravoslav Patriarxı Azərbaycandakı xristianları müsəlmanlarla müqayisə etdi...

səh. 4

Azərbaycan İsraildən silah alışını artırdı, Ermənistan yeni xofda...

səh. 7

Dünya neft oyunçularının gözü Bakıda - martın 18-də nələr olacaq...

səh. 10

"Qaçqın... Komun" yeni bahalı xidməti avtomobili barədə sosial şəbəkə müzakirələri və həqiqət...

səh. 12

İllərdən bəri sədrsiz işləyən müxalifət partiyası - AMİP...

səh. 6

Sınıq-salxaq liftlərin və tavanından su tökülən çoxmərtəbəli binaların bəxti açıldı - Prezidentin sayəsində...

səh. 13

MDB ölkələri arasında kapitallaşmaya görə ən yüksək səviyyə Azərbaycana nə verir...

səh. 13



## İctimaiyyət meşə məhsullarının yığımına rəsmi məhdudiyyətləri birmənalı qarşılamadı, Prezident cəmiyyətin səsini eşitdi və qərar verdi...

səh. 10





«İlham Əliyevin istehzalı gülüşünü və özünü itirmiş Paşinyanı gördük...»

səh. 9

İrəvanda saxta genosid abidəsini ziyarət edən Azərbaycan jurnalistləri, qaranlıq missiyanın pərdəarxası...

səh. 6

Şamaxı-İsmayıllı zəlzələsi icra strukturlarının hazırlıq səviyyəsini bir daha sınağa çəkdi

səh. 11

səh. 8

Arif Əliyevin yersiz "göz yaşları" və KİVDF-nin ideya müəllifləri...



səh. 4

Xocalı faciəsinin yeni ildönümündə yeni hadisə - cinayətkar rus-sovet hərbçilərinin məhkəmə prosesi başlanacaqmı...



səh. 7

İkili standartlar Avroittifaq üçün baş ağrısına çevrilir, Azərbaycan bunu onlara çoxdan xəbərdarlıq etmişdi...



səh. 13

Banklarda xarici valyuta ilə əmanətlər artır, manata inamın azalması, ya...



səh. 15

Şou müğənniyə 200 minlik maşın alan oliqarx və ehtiyac içində yaşayan şəhid ailəsi...



## Ramil Usubov fevralın 23-də Şirvan şəhərində vətəndaşları qəbul edəcək...

**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2019-cu il fevral ayının 23-də Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab və Saatlı şəhər və rayonlarının sakinlərini Şirvan Şəhər Polis Şöbəsində qəbul edəcək.**
**Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər. Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidir.**



Qəbul başa çatdıqdan sonra daxili işlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab və Saatlı şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə, habelə mülki işçi vəzifələrinə (polisə ictimai dəstək) işə qəbulla bağlı Şirvan Şəhər Polis Şöbəsində sıra baxışı keçiriləcək. Sıra baxışında ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış, yuxarıda göstərilən rayonlarda yaşayış yeri üzrə daimi qeydiyyatda olan və "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi vətəndaşları iştirak edə bilər.

Sıra baxışına gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidir.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanacaq.

Polisə ictimai dəstək əməkdaşı vəzifələrinə işə qəbul olunan şəxslər polis orqanlarının vəzifəli şəxslərinin rəhbərliyi altında ictimai asayişin qorunması üzrə funksiyaların yerinə yetirilməsinə cəlb olunacaq, xüsusi geyim forması ilə təmin ediləcəklər. Onlara Daxili İşlər Nazirliyinin mülki işçiləri üçün müəyyən edilmiş təminatlar şamil olunacaqdır.

Kompyuter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, xarici dillərdən birini (əsasən ingilis dili) sərbəst bilən və emosional dayanıqlı vətəndaşlara üstünlük veriləcəkdir.

Əlavə məlumat almaq üçün əlaqə telefonları:
(012)-590-97-52; (012)-590-92-70; (012)-590-93-45.

## KTMT-nin Qərargah rəisi Dağlıq Qarabağ münaqişəsindən danışdı

**Beynəlxalq vasitəçilərin və region ölkələrinin birgə səyləri Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı dialoqun fəallaşmasına, həmçinin gərginliyin azalmasına səbəb oldu.**



"Trend"-in məlumatına görə, bunu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Birləşmiş qərargahının rəisi general-polkovnik Anatoli Sidorov İrəvan-Moskva-Minsk-Bişkek-Astana videokörpüsü zamanı deyib. O bildirib ki, Azərbaycan və Errmənistan rəhbərliklərinin müntəzəm görüşləri sülh prosesi üçün zəruri olan şəraitin yaradılmasına və etimadın möhkəmləndirilməsinə yönəlmiş tədbirlərin görülməsi üzrə müəyyən razılaşmaların əldə olunmasına imkan verdi: "Son onilliklər ərzində ilk dəfə olaraq yüksək səviyyədə birbaşa təmas quruldu". Ermənistan tərəfindən Rusiya istehsallı Su-30SM çoxfunksiyalı qırıcıların alışının KTMT-nin sərhədlərinin təhlükəsizliyinə nə dərəcədə təsir göstərəcəyinə gəlincə, A.Sidorov təşkilatın üzv dövlətlərinin rəhbərləri tərəfindən qəbul edilən qərarı şərh edə bilməyəcəyini vurğulayıb. Xatırladaq ki, Rusiya və Ermənistan Su-30SM qırıcı təyyarələrinin tədarükü haqqında müqavilə bağlayıb.

## İrəvanda universitetin elmi işçiləri etiraz aksiyası keçirir

**İrəvan Dövlət Universitetinin 200-ə yaxın əməkdaşı paytaxtda etiraz aksiyası keçirir. "Trend"in məlumatına görə, aksiya iştirakçıları hökumətin yeni qərarına etiraz edir.**

Yeni qərara əsasən, elmi laboratoriyaların maliyyələşdirilməsi üçün tenderlər keçirilməlidir. Bu tenderlərdə özəl şirkətlər iştirak edə bilər. Etirazçılar bildirir ki, bu qərara elmi laboratoriyaların 450-yə yaxın əməkdaşının işsiz qalmasına səbəb olacaq.

# Prezident Azərbaycanda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi yaratdı...

**Prezident İlham Əliyev Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin yaradılması haqqında fərman imzalayıb.**



Fərmana əsasən müəyyən edilir ki, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi dünyada və regionda baş verən prosesləri təhlil edən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin müxtəlif aspektləri, beynəlxalq münasibətlər və təhlükəsizlik məsələləri ilə bağlı fundamental araşdırmalar aparan, bu məsələlərə dair ölkəmizin mövqeyinin beynəlxalq ictimai, siyasi və akademik dairələrə çatdırılmasında iştirak edən, Azərbaycanın dövlət orqanlarını həyata keçirdiyi elmi-analitik təhlilin nəticələri ilə təmin edən publik hüquqi şəxsdir.

Azərbaycan Prezidenti Administrasiyası Mərkəzin nizamnaməsinin layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim edəcək.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etsin; Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Prezidentinə məlumat versin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Prezidentinə məlumat versin; bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyinə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat vermək tapşırılır.

## Paytaxt və bölgələrdə yüzlərlə avtomobilin şüşəsini sındıran cinayətkar dəstə ələ keçdi

Paytaxtın Nizami rayonu Ə.Hacıyev küçəsində yerləşən paltar mağazalarından birindən oğurluq edilib. Naməlum şəxslər mağazanın giriş qapısını sındıraraq içəridən 450 manat pul götürərək hadisə yerindən qaçıb. Hadisə ilə bağlı 25-ci Polis Şöbəsinə məlumat daxil olan kimi cinayəti törədən şəxslərin axtarışlarına başlanıb. Həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbiri nəticəsində hadisəni tərətməkdə şübhəli bilinən paytaxt sakinləri Ceyhun Abbasov və Elxan İsayev saxlanıbr.

25-ci Polis Şöbəsində araşdırma aparılan zaman onların başqa cinayətlərinin də üstü aşılıb. Belə ki, C.Abbasov və E.İsayevin paytaxt ərazisində və respublikanın ayrı-ayrı bölgələrində yüzlərlə avtomobilin şüşələrini sındıraraq nəqliyyat vasitələrinin salonlarından oğurluqlar etdikləri məlum olub. Onlar ifadələrində törətdikləri cinayətləri etiraf ediblər.

Faktla bağlı 25-ci Polis Şöbəsində saxlanan şəxslər barəsində toplanan materiallar araşdırılması üçün Nizami RPİ-nin İstintaq Şöbəsinə göndərilib.

Bu şəxslərin digər cinayətlərdə iştirak etdikləri də istisna olunmur. Onların əməllərindən zərər çəkən başqa vətəndaşlar varsa, bu barədə Daxili işlər Nazirliyinin "102" Zəng Mərkəzinə, Nizami RPİ və ya 25-ci PŞ-nə müraciət edə bilər.

## Makron özünün bugünkü genosidini görmür, 1915-ci ildəki uydurma genosiddən danışır

**Fransanın qondarma "erməni soyqırımı" ilə bağlı bəyanatları məsuliyyətsizlikdir və bu cavabsız qalmayacaq.**



Bunu "Trend"ə Türkiyə hökumətindəki mənbə Fransa prezidenti Emmanuel Makronun 1915-ci il hadisələri ilə bağlı açıqlamalarını şərh edərkən deyib. Müsahibin sözlərinə görə, Fransanın bu cür açıqlamaları Türkiyə üçün siyasi əhəmiyyət kəsb etməsə də, Ankara bu təxribatçı addıma sərt cavab verəcək. Mənbə onu da qeyd edib ki, bu cür açıqlamalarla Fransa tərəfi özünün demokratiyaya sadiqliyini nümayiş etdirmək istəyir: "Əsassız iddiaları inkarolunmaz fakt kimi qəbul etməklə Paris demokratik dəyərlərə zidd olan ikili standartlara sadiqliyini göstərir".

## Rumıniya Avropa strukturlarının ikili standart siyasətinə üsyan etdi - Fransada polis zorakılığına səssiz qalan Aİ liderləri ifşa edilir...

*”Sarı jiletlilər”ə qarşı polis zorakılığına görə kimsə Avropa Parlamentinə gəlib Fransa haqqında qərar çıxarılmasını istəmədi. Bu, ikili standartdır”*

**Rumıniya Avropa İttifaqını (Aİ) ikili standart siyasətində ittiham edib. Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Rumıniya baş naziri Viorika Dansila Avropa İttifaqını insan hüquqları və demokratiya məsələlərində digər ölkələrə, hətta Şərqi Avropadakı Aİ üzvü dövlətlərinə qarşı ikili standartlar sərgiləməkdə günahlandırıb.**

"Politico" nəşrinə müsahibə verən Dansila Aİ liderlərini ölkəsindəki korrupsiya və hökumətə qarşı etirazlara ikili standartla yanaşmaqda ittiham edib. Avropa İttifaqı Şurasına sədrliyi təhvil alan Rumıniyanın xanım baş naziri Dansila İttifaqın ikili standart siyasəti yürütdüyünə dair konkret fakt da göstərib. Baş nazir Fransada "sarı jiletlilər"in keçirdiyi aksiyalar zamanı polisin etirazçılara qarşı güc tətbiq etdiyini, lakin Avropa liderlərinin buna səssiz qaldığını deyib. Rumıniyaya başqa ölkələr kimi davranmağa icazə verilmədiyini deyən baş nazir daha sonra bildirib: "Fransada "sarı jiletlilər"in keçirdiyi etirazlarda nələrin baş verdiyini, polisin qeyri-insani davranışını hamımız gördük. Ancaq kimsə Avropa Parlamentinə gəlib Fransa haqqında qərar çıxarılmasını istəmədi. Bu, ikili standartdır". Aİ-nin Rumıniya, Bolqarıstan və Polşa kimi ölkələrə qarşı ədalətli davranmadığını deyən Dansila ölkəsi və Bolqarıstan üçün korrupsiyaya qarşı mübarizəyə dair sənədin imzalanmasının məcburi olduğunu ifadə edib: "Niderland, Fransa və Almaniyada da korrupsiya var. Lakin heç kim bu ölkələrə qarşı oxşar mexanizmin tətbiqini zəruri görmür". Qeyd edək ki, son zamanlar Rumıniya korrupsiya məsələsi ilə əlaqədar Avropa Komissiyası və Avropa Parlamentinin tənqid hədəfinə çevrilib, ölkə rəhbərliyi liberal demokratiyadan uzaqlaşmaqda günahlandırılıb.

## DTX Bakı aeroportunda dövlətlər arasında gizli dərman daşıyan dəstəni zərərsizləşdirdi

Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) əməkdaşları Heydər Əliyev Beynəlxalq Hava Limanında əməliyyat keçirib. "Trend"in məlumatına görə, keçirilən əməliyyat nəticəsində Türkiyədən Azərbaycana qaçaqmal daşıyan dəstə saxlanıb.

Məlum olub ki, mütəşəkkil dəstə Türkiyədən Azərbaycana gömrük nəzarətindən kənar dərman preparatları keçirirmiş.

Mütəşəkkil dəstə Türkiyədə aeroportda nəzarətdən yayınsa da, Azərbaycanda ələ keçib.

Hazırda əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Bakıda bir gündə iki mənzildən 30000 manat dəyərində qızıl-zinət əşyaları oğurlayan dəstə tutuldu

Fevralın 3-də Səbail rayonu Z.Əliyeva küçəsi 29 ünvanında yerləşən iki mənzildənoğurluq edilib. Naməlum şəxs və ya şəxslər mənzillərə daxil olaraq ümumi dəyəri 30000 manat olan qızıl-zinət əşyaları, 2 ədəd televizor və noutbuk oğurlayıblar.

Zərərçəkən ev sahiblərinin şikayəti əsasında Səbail Rayon Polis İdarəsi və 39-cu Polis Bölməsi əməkdaşlarının qısa zamanda həyata keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində qeyd edilən hadisəni törətməkdə şübhəli bilinənpaytaxt sakinləri Əfsanə Xankişiyeva və Anar Heydərov qısa zamanda saxlanılıblar.

Araşdırma zamanı müəyyən edilib ki, Ə.Xankişiyeva və A.Heybətov oğurladıqları televizorlardan birini və qızıl-zinət əşyalarından müəyyən hissəsini satıblar.Həmin şəxslər tutulan zamanonlardan oğurluq yolla əldə etdikləri qızl-zinət əşyaları, həmçinin hadisə zamanı istifadə etdikləri əlcəklər aşkar edilərək maddi sübut kimi götürülüb. Ə.Xankişiyeva və A.Heydərovistintaqa verdikləri ifadələrində qeyd edilən hadisəni törətdiklərini etiraf ediblər.

Faktla bağlı Səbail Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 177.2.1 (oğurluq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) 177.2.2 (təkrar törədildikdə) və 177.2.3 (yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla törədildikdə) maddələri ilə cinayət işi başlanılıb. Əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Aydın Quliyev: "Azərbaycan Prezidenti Rusiya Patriarxını qəbul edərkən Qafqazı qatıb-qarışdırmaq istəyənlərə qəti mesaj verdi"

**Azərbaycanın öz geosiyasi üstünlüklərini həlledici real faktora çox bacarıqla çevirə bildiyini Prezident İlham Əliyev bütün Rusiyanın və Moskvanın Patriarxı Kirillə görüşündə bir daha ifadə etdi. Azərbaycanın geosiyasi üstünlükləri və daxili resursları birlikdə güclü faktor kimi həm regional, həm də kontinental miqyasda özünü göstərir.**

Bu fikirləri baki-xeber.com-a politoloq Aydın Quliyev deyib. Onun sözlərinə görə, görüşdə Rusiya-Azərbaycan münasibətlərinin bütün palitrasında müsbət dinamikanın fasiləsiz müşahidə edildiyini bildirən Prezident bu münasibətlərin bütün regionun taleyində mühüm rol oynadığına diqqət çəkdi: "Çox sərrast formada bildirildi ki, ölkələrimiz arasında qarşılıqlı etimad prezidentlərdən başlamış adi insanlaradək çox yüksək səviyyədədir. Prezident əsaslı olaraq belə bir qənaətini də bildirdi ki, bu münasibətlərin inkişafı bütün regionda, Qafqazda sulhün möhkəmlənməsinə öz təsirini göstərir. Azərbaycan-Rusiya münasibətlərini bütün qonşular üçün nümunə adlandıran Azərbaycan Prezidenti əslində bununla regionda sülh və təhlükəsizliyin hansı əməkdaşlıq tandeminin üstündə dayandığını göstərdi. Bu mənada, Prezidentin patriarx Kirillə dediyi sözləri Qafqazda sabitliyi pozmaq planları üstündə işləyən qüvvələrə aydın bir mesaj kimi də qəbul etmək lazımdır. Həqiqətən də, nə qədər ki, Azərbaycan-Rusiya münasibətləri dərinləşən xətt boyunca inkişaf edir, Qafqaz regionunda sülh və inkişafın təminat altında olduğuna şübhə yoxdur. Bu faktorun, hətta regionda Ermənistanın təcavüzkarlığı kimi bir təhlükə mənbəyini də aradan qaldırmaq gücünə malik olduğunu heç kim inkar etmir. Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyanın həlledici imkanlara malik olmasına əsaslı ümidlər məhz buradan doğur. Rusiya -Azərbaycan münasibətlərinin indiki səviyyəyə çatmasında hər iki dövlətin və ilk növbədə prezidentlərin müstəsna rola malik olduqlarına şübhə yoxdur. Unutmayaq ki, münasibətlər heç də həmişə indiki kimi yüksək səviyyədə olmayıb, hətta keçmişlərdə münasibətlərdə böhranların yaşandığı anlar da olub və bu çətin mərhələlər qarşılıqlı səylərlə zaman-zaman aradan qaldırılıb. Xüsusilə Prezident İlham Əliyevin bu əməkdaşlıqda Azərbaycanın geosiyasi üstünlüklərini real təsir vasitələrinə çevirməkdə səyləri əvəzsizdir. Bir anlığa təsəvvür etmək olar ki, Azərbaycan-Rusiya münasibətləri gərginlik və ya qeyri-müəyyənlik içindədir. Bu halda regionumuzun ümumi təhlükəsizlik və daxili münasibətlər baxımından hansı vəziyyətdə ola biləcəyini düşünmək belə dəhşətlidir. Rusiya-Gürcüstan, Rusiya-Ermənistan, Rusiya-İran, Rusiya-Mərkəzi Asiya dövlətləri arasında münasibətlərin heç biri bunun qədər regionumuzun taleyində dəyişdirici gücə malik deyil. Azərbaycanla Rusiyanın yaxınlığı regionumuzda başqa hər hansı ikitərəfli münasibətlərdəki neqativ təzahürlərin təsirlərini neytrallaşdıra bilir və bilər. Rusiya-Gürcüstan, Rusiya-Ermənistan mübasibətlərindəki soyuqluqla regionumuz o qədər də çox şey itirmir. Ancaq Azərbaycanla münasibətlər tam başqa məsələdir. Rusiya ilə indiki kimi yüksək münasibətlərin həlledici rolunu görmək və buna nail olmaq Azərbaycan Prezidentinin geosiyasi tapıntısı adlandırıla bilər".



Aydın Quliyev əlavə edib ki, bu səviyyə özözünə əldə olunmayıb, böyük səylərin hesabına başa gəlib: "Azərbaycanın nəqliyyat, tranzit, logistika və enerji imkanları yetərincə üzə çıxarılmasaydı, regiondakı bütün əməkdaşlıq tandemlərinin həlledici partnyorlarından birinə çevrilə bilməzdi. Hətta Ermənistan kimi regionda əhəmiyyətsiz bir ölkəyə çevrilər, "Azərbaycan kimə lazımdır" kimi məntiqli sual ortaya çıxardı. Azərbaycanın geosiyasi üstünlüklərinin real təsir faktorlarına çevrilə bilməsi sayəsində ölkəmiz regionun ən gərəkli ölkəsi halına gəldi. Azərbaycanın daxili resursları və geosiyasi üstünlüklərini birləşdirmək Prezidentin kontinental miqyaslı layihəsidir və ölkəni güclü dövlətə çevirən əsas şərtdir".

# Azərbaycanın Rusiya ilə birlikdə qonşulara nümunə göstərdiyi növbəti dəfə səsləndirildi...

**"Bizim münasibətlərimiz qonşular arasında münasibətlərə nümunə ola bilər". Bunu Prezident İlham Əliyev Bakıda Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill ilə görüşü zamanı bildirib. Ölkə başçısının sözlərinə görə, Azərbaycan və Rusiya arasında qarşılıqlı etimad səviyyəsi prezidentlərdən başlamış, adi vətəndaşlara qədər bütün səviyyələrdə çox yüksəkdir.**




*"Ermənistanla əlaqələrdə problemlər fonunda, Bakı-Moskva əməkdaşlığında problem yoxdur"*

## *Məhəmməd Əsədullazadə: "Bu, Moskvaya Azərbaycanın dostluq və qarşılıqlı əlaqələrin inkişafında səmimi olmasının mesajıdır"*

Onun fikrincə, keçən il rekord sayda - 900 minə yaxın rusiyalı Azərbaycana səfər edib: "Bu onu göstərir ki, insanlar və ölkələr arasında münasibətlər ən yüksək səviyyədədir. Ona görə ki, onlar özlərini evdəki kimi hiss edir, buraya yaxşı niyyətlərlə gəlir və burada onlara doğma münasibət bəsləyirlər.

Həmçinin, qeyd etmək istərdim ki, keçən il Rusiya və Azərbaycan prezidentləri arasında altı görüş olub. Düşünürəm ki, bu da bizim münasibətlərimizin mahiyyətini və xarakterini, yaxınlığımızı əks etdirən rekord göstəricidir. Əlbəttə, Vladimir Vladimiroviçin Azərbaycana səfəri və mənim Rusiyaya səfərim bizim münasibətlərimizin daha da möhkəmlənməsi işində çox mühüm rol oynayıb. Düşünürəm ki, bizim münasibətlərimiz qonşular arasında münasibətlərə nümunə ola bilər. Bizi tarixi baxımdan bağlayan səbəblər çoxdur və bu gün - biz bütün istiqamətlərdə fəal qarşılıqlı əlaqə saxladığımız bir vaxtda bu əməkdaşlıq, əlbəttə, bizim regionda, Qafqazda sülhün möhkəmlənməsi işində xüsusi əhəmiyyət kəsb edir".

Bu gün Azərbaycan-Rusiya münasibətləri bütün müstəvilərdə inkişaf edir. Siyasi-iqtisadi, mədəni, humanitar və s. Bütün bunlar qarşılıqlı anlaşma çərçivəsində inkişafdadır. Baxmayaraq ki, bəzən müəyyən dairələr iki ölkə münasibətlərinə kölgə salmağa çalışırlar. Ancaq buna nail ola bilmir. Bu baxımdan, Azərbaycan-Rusiya münasibətləri qonşular arasında münasibətlərə nümunə ola bilər.

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Rusiya-Azərbaycan əlaqələri qarşılıqlı və birgə etimad müstəvisində inkişaf edir:** "Eyni zamanda, rəsmi Bakı daim maraqlıdır və çalışır ki, iki ölkə əlaqələri yüksək səviyyədə inkişaf etsin. Qeyd edim ki, Azərbaycan Prezidenti ilə Rusiya Prezidenti Vladimir Putin arasında ötən il ikitərəfli əlaqələrin inkişafı üçün siyasi-iqtisadi və humanitar istiqamətləri əhatə edən müqavilələr imzalanıb. Bu müqavilələr iki ölkənin gələcəkdə əməkdaşlığının təməl prinsipləridir. Rəsmi Bakı çalışır ki, bu istiqamətdə əlaqələr qorunub saxlansın. Bu gün Azərbaycan-Rusiya əlaqələrinin inkişaf etməsini məhz rəsmi Bakının apardığı siyasətin nəticəsi kimi qiymətləndirmək lazımdır. Çünki Azərbaycan Rusiyanın regionda müəyyən maraqlarını nəzərə alır və Ermənistan kimi Moskvanın regionda geosiyasi maraqlarına qarşı siyasət aparmır. Bu baxımdan, iki ölkə arasında dinlərarası münasibətlərin də yüksək səviyyədə olduğu qeyd edilməlidir. Çünki dini məsələ hazırda regionun ümumi təhlükəsizliyi baxımından mühüm faktordur və Moskva-Bakı əməkdaşlıq oxunda hər hansı bir problemin yaranmaması üçün daim dini rəhbərlər görüşür, əməkdaşlıq edirlər. Rusiya Patriarxı İkinci Kirillin ölkəmizə səfəri, ölkə başçısı tərəfindən qəbulu dinlərarası dialoqun nəticəsidir. Eyni zamanda, Rusiya-Azərbaycan əlaqələrinin dinamikliyi, səmərəsi baxımından xüsusi mahiyyət kəsb edir.

Hesab edirəm ki, Prezident İlham Əliyevin Rusiya-Azərbaycan əlaqələrini digər qonşu ölkələrə nümunə kimi qeyd etməsi Moskvaya Azərbaycanın dostluq və qarşılıqlı əlaqələrin inkişafında səmimi olmasının mesajıdır. Bu gün Gürcüstanın Rusiya ilə münasibətləri yaxşı deyil.

Ukrayna da həmçinin. Ermənistanla əlaqələrdə problemlər fonunda, Bakı-Moskva əməkdaşlığında problem yoxdur. Məhz ölkə başçısı bunu deməklə, Moskvanın öz siyasətində, xüsusilə Qarabağ siyasətində Azərbaycana tam dəstək verməsini sətiraltı qeyd edir".

***Vidadi ORDAHALLI***

# Xocalı faciəsinin yeni ildönümündə yeni hadisə - cinayətkar rus-sovet hərbçilərinin məhkəmə prosesi başlanacaqmı...

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında sərəncam imzalayıb. Sərəncamda Azərbaycan Prezidentinin Administrasiyasına Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etmək tapşırılıb. Ümumilikdə, Prezidentin bununla bağlı sərəncam imzalaması müsbət haldır.**




*"Bunun üçün mütləq beynəlxalq tribunalın çağırılmasına ehtiyac var"*

***Elçin Mirzəbəyli:** "366-cı alayın komandir və zabitləri barəsində cinayət işi açmaq vacibdir"*

O mənada ki, sözügedən məsələ daim diqqət mərkəzində saxlanır. Ötən illər ərzində bir sıra işlər görülüb. "Xocalıya ədalət" kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımı ilə bağlı müvafiq qərarlar qəbul edilsə də, bəşəriyyət əleyhinə bu cür ağır cinayətə beynəlxalq miqyasda hələ hüquqi qiymət verilməyib.

O da məlumdur ki, Xocalı soyqırımının həyata keçirilməsində o zaman Dağlıq Qarabağda yerləşən 366-cı motoatıcı alayın zabitləri də fəal iştirak ediblər. Bununla bağlı çoxsaylı fakt var. Həmin dövrdə alayın yüksək səlahiyyətli zabitləri ermənilərə müntəzəm surətdə silahlar, hərbi sursatlar satırdılar. Bütün bunların nəticəsi olaraq, alayda hərbi qanunlardan kənar olan qanunsuz atmosfer yaranıb. Ordu qanunları ticarət qanunları ilə əvəzlənib. Alayın say tərkibi 1800 nəfəri əhatə etməsinə baxmayaraq, cəmi 350 nəfərə yaxın zabit və əsgəri qüvvə qalıb. Mərkəzi Tiflis şəhərində yerləşirdi. O zaman pul qazanmaq zabitlərin başlıca amalına çevrilmişdi. Hətta erməni terror qruplarına belə xidmətlərin gündəlik məzənnəsi də bəlli idi. Azərbaycanlıların yaşayış məntəqəsinə bir top atəşi 1300 rubl, BTR-in bir gecəlik icarəsi 5000 rubl, altı PDM-dən ibarət qrupun hər reydi üçün 1,5 milyon rubl, kiçik rütbəli zabitlərin təlimatlarının göstərişlərinə 3-4 min rubl ödənilməli idi. Canlı qüvvə olaraq sıravi əsgərlər də pul müqabilində döyüş əməliyyatlarına cəlb olunublar.

O zaman fevralın 27-də Binə aeroportunda Deyçukov Oleq Alekseyeviç adlı bir polkovnik həbs olunub. Onun üstündən yarım milyona yaxın pul aşkarlanıb. Alayda əsas vəzifələri tutan erməni zabitlərinin sayı 50 nəfər olub. Alayın komandiri Yuri Zarviqarov bilavasitə Xocalı soyqırımına rəhbərlik edənlərdən biri olub. Çünki onun icazəsi olmadan alayın əsgər və zabitləri qırğında iştirak və erməni quldurlarına kömək edə bilməzdilər.

Digər tərəfdən, keçmiş Sovet ordusunun ənənələrinə görə, alayda ukraynalılar, qazaxlar, özbəklər, gürcülər də hərbi xidmət keçirdilər. Hələ 1991-ci ilin sonlarında alayın bir qrup zabiti Zaqafqaziya hərbi dairəsi komandanlığına rəsmi məktubla müraciət edib alaydakı mənəvi pozğunluğu göstərməklə yanaşı, yüksək səlahiyyətli zabitlərin onları azərbaycanlı əhaliyə qarşı döyüşlərə sövq etmələrini göstəriblər. Onların rəyi bu idi ki, alayın komandiri, polkovnik Zarviqarov təcili dəyişdirilməlidir.

Ancaq hərbi komandanlıq zabitlərin etiraz məktubuna, raportuna heç bir məhəl qoymayıb.

O da məlumdur ki, Xocalı qatilləri hələ də öz cəzalarını almayıblar. Bunlar təkcə qırğında iştirak edən ermənilər deyil. O cümlədən 366-cı motaatıcı alayın zabitləridir. Onlara qarşı cinayət işinin açılması və məsuliyyətə cəlb olunmaları vacibdir. İndiyə qədər bu olmayıb, heç olmasa bundan sonra müvafiq işlərin görülməsini ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, 366-cı alayın komandir və zabitləri barəsində cinayət işi açmaq vacibdir:** "Azərbaycan qanunvericiliyi çərçivəsində Hərbi Prokurorluğun bu günə qədər apardığı araşdırmalar, ölkə parlamentinin və eyni zamanda, dünyanın bir sıra ölkələrinin Xocalı soyqırımı ilə bağlı qərarı tamamilə əsas verir ki, bununla bağlı beynəlxalq tribunalın çağırılması məsələsi gündəmə gəlsin. Bunun üçün mütləq beynəlxalq tribunalın çağırılmasına ehtiyac var. Başqa bir aspekt isə Rusiyaya müraciətlə bağlıdır. Çünki sözügedən alay SSRİ süqut edəndən sonra Xocalı soyqırımında iştirak edib.

Onun rəhbərliyi əsasən Rusiyada yaşayır. Düzdür, alayın tərkibində ermənilər də olub. Ancaq rus zabitlərinin soyqırımda iştirak etməsi danılmaz faktdır. Hesab edirəm ki, həmin şəxslərin müvafiq qaydada Azərbaycana ekstradisiya edilməsi ilə bağlı müraciət oluna bilər. Fikrimcə, bu mümkündür və bununla bağlı səyləri artırmaq lazımdır".

***Vidadi ORDAHALLI***

# Rusiya Pravoslav Patriarxı Azərbaycandakı xristianları müsəlmanlarla müqayisə etdi...

**Azərbaycandakı pravoslavlar da müsəlman əksəriyyəti kimi bütün imkanlardan istifadə edirlər. Məlum olduğu kimi, bu barədə Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü zamanı bildirib.**



*"Kirillin açıq səviyyədə bunu bəyan etməsi bir daha göstərir ki, Azərbaycanda dinlərarası münasibətlər ən yüksək səviyyədədir"*

***Seyid Camal Əzimbəyli:** "Ölkədə bütün dinlərə etiqad edənlər bərabər hüquqa malikdirlər"*

Patriarx Kirill bildirib ki, o, Azərbaycana səfər edərkən həmişə dinlərarası münasibətlərin yüksək səviyyəsinə diqqət yetirir: "Həm də bu münasibətlər yalnız hansısa rəsmi səviyyədə göstərici deyil. Bütün bunlar sadə insanların həyatına birbaşa aiddir. Azərbaycandakı pravoslavlar da müsəlman əksəriyyəti kimi bütün imkanlardan istifadə edirlər. O cümlədən Azərbaycanda millətlərarası, dinlərarası sülhün möhkəmlənməsində həm də çox müsbət işlər görən dostum Şeyxülislam Paşazadənin rolunu xüsusi qeyd etmək istərdim.

O həm də, şübhəsiz, rus kilsəsi ilə təkcə Azərbaycanın müsəlmanları ilə deyil, həm də Qafqazın ali dini rəhbəri olduğuna görə Rusiya müsəlmanları ilə münasibətlərin inkişafında böyük işlər görür".

Patriarx Kirill onu da qeyd edib ki, həmişə zatimüqəddəsləri Aleksandr ilə görüşəndə o bu münasibətləri çox nikbin təsvir edir: "Mən dəqiq bilirəm ki, bu, reallıqdır və həqiqətən belədir. Azərbaycanda yaşayan pravoslavlar heç bir narahatlıq hiss etmirlər. Onlar öz ölkələrinin həm vicdanlı vətəndaşlarıdır, eyni zamanda, pravoslavdırlar. Onları həm dini əqidələrinə, həm də ənənəyə görə tarixi vətəni - Rusiya ilə bağlayan çox şey var".

Bütün bunlar bir daha Azərbaycanda dinlərarası münasibətlərin yüksək səviyyədə olmasının göstəricisidir. Azərbaycanda müxtəlif dinlərə sitayiş edən vətəndaşlara olan münasibətin yaxşı səviyyədə olması bir reallıqdır. Hamıya bərabər etiqad azadlığı yaradılıb. Bütün bu deyilənlərin fonunda, Patriarx Kirillin məlum açıqlaması ekspertlər necə dəyərləndirilir?

**Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, Patriarx Kirillin Prezident İlham Əliyevlə görüşü zamanı səsləndirdiyi fikirlər reallığı özündə əks etdirir:** "Onun açıq səviyyədə bunu bəyan etməsi bir daha göstərir ki, Azərbaycanda dinlərarası münasibətlər ən yüksək səviyyədədir. Ölkədə bütün dinlərə etiqad edənlər bərabər hüquqa malikdirlər. Onlara münasibətdə ayrıseçkilik yoxdur. Dövlət büdcəsindən edilən yardımlardan onlar da istifadə edirlər. Bu bir daha Azərbaycandakı tolerantlığa, birgə yaşayışa verilən yaxşı qiymətdir. Bu, ölkədə dinlərarası, millətlərarası münasibətlərin hansı səviyyədə olmasına əyani misaldır. Düşünürəm ki, Azərbaycanla müharibə vəziyyətində olan Ermənistanı müqayisə etsək, bu ayıb sayılar.

**Bütövlükdə, səslənən fikirlər özünü demokratiyanın carçısı hesab edən ölkələrə Azərbaycanın timsalında gözəl çağırış oldu. Ümumilikdə, Azərbaycan tarixən müxtəlif xalqların və dinlərin nümayəndələrinin dostluq və qardaşlıq şəraitində birgə yaşadığı məkan olub.**

Müstəqillik dövründə xalqımızın öz kökünə qayıdışı tolerantlığa, islami dəyərlərə daha böyük üstünlük verilməsinə, adət-ənənələrimizin bərpasına və cəmiyyətin əxlaqi-mənəvi yüksəlişinə zəmin yaratdı. Bu ali dəyərlərin qorunması dövlət siyasətinin prioritet istiqamətinə çevrildi. Bununla paralel, digər dinlərə də bərabər münasibət ölkədə hökm sürür.

Uzun illərdir ölkəmizdə müxtəlif dinə etiqad edən xalqlar azərbaycanlılarla çiyin-çiyinə yaşayırlar. Bu xalqların monolit birliyi Azərbaycan tolerantlığı ilə vəhdət təşkil edir. Tolerantlıq xalqımızın mənəvi zənginliyidir. Bu baxımdan, Azərbaycan zəngin ölkədir".

***Vidadi ORDAHALLI***

# Azər Süleymanov, Ruslan Hacıyev, Mahir Dərziyev və Savalan Mirzəyev...




# Cinayətkar erməniyə büst məsələsi Gürcüstan parlamentində qaldırılanda üç azərbaycanlı deputat zaldan qaçdı...

## Tək Azər Süleymanovdan başqa...

**Gürcüstanın Axalkalaki bölgəsində əli azərbaycanlıların və gürcülərin qanına batan, daşnak ideologiyasının davamçısı Maxail Avaqyana yerli bələdiyyə tərəfindən büst qoyulması həm Azərbaycanda, həm də Gürcüstanda böyük narazılıqla qarşılanmaqdadır. M.Avaqyan Abxaziya və Dağlıq Qarabağ münaqişələrində iştirak edib və yüzlərlə azərbaycanlını, gürcünü qətlə yetirib. Bir daşnak caniyə Gürcüstan hökumətinin təşəbbüsü və razılığı ilə bust qoyulması yolverilməzdir.**

### *Soydaşlarımızın Avaqyanın büstünün sökülməsinə nail olmaq üçün Gürcüstan parlamenti qarşısında keçirmək istədiyi aksiyaya icazə verilməyib*

Avaqyana qoyulan büstün sökülməsi ilə bağlı yerli azərbaycanlıların Gürcüstan hökumətinə çoxsaylı müraciətləri hələlik cavabsız qalır. Soydaşlarımız isə çarəni M.Avaqyanın Axalkalakidə ucaldılmış abidəsinin sökülməsi tələbini hökumətə çatdırmaq üçün Gürcüstan parlamenti qarşısında etiraz aksiyası keçirməkdə görür. Bu abidənin ucaldılmasını etirazla qarşılayan soydaşlarımız Gürcüstan parlamenti qarşısında bir neçə dəfə etiraz aksiyası keçirməyi planlaşdırsalar da, Tiflis Meriyası buna icazə verməyib. Fevralın 6-da soydaşlarımız tərəfindən keçirilməsi nəzərdə tutulan etiraz aksiyası təxirə düşüb.

**Gürcüstanlı soydaşımız, iqtisadiyyat üzrə fəlsəfə doktoru, gənc fəal Aygül İsayeva "Bakı-Xəbər"ə bildirdi ki, Tiflis Meriyası aksiyanın keçirilməsinə icazə verilməməsini Zaza Saralidzenin parlamentin binası qarşısında çadır qurması ilə əlaqələndirib.** "Aksiyanın keçirilməsinə icazə verilmədi. Meriyadan bildiriblər ki, Zaza Saralidze parlamentin qarşısında çadır qurub və o, ərazini zəbt edib, buna görə də azərbaycanlılara orada aksiya keçirməyə icazə verilməyib. Meriya bunu əsas gətirib" - deyə bildirən gənc fəal qeyd etdi ki, soydaşlarımız etiraz aksiyası keçirməkdə israrlıdır və aksiyanın fevralın 8-də keçirilməsi planlaşdırılır. O hesab edir ki, həmin gün aksiya keçiriləcək.

**Etiraz aksiyasının təşkilatçısı gənc fəal Sevinc Hümbətova da "Bakı-Xəbər"ə bildirdi ki, onlar etiraz aksiyası keçirmək üçün Tiflis Meriyasına müraciət ediblər.** Lakin meriyadan əvvəl buna razılıq verilsə də, aksiyaya bir gün qalmış etirazçılara "aksiya keçirməyə icazə verilmir" cavabı verilib. S.Hümbətovanın sözlərinə görə, meriya aksiyanın keçirilməsinə icazə verməməsinin səbəbini heç nə ilə izah etmir, sadəcə, "olmaz" deyir. S.Hümbətova qeyd etdi ki, soydaşlarımız Avaqyanın büstünün götürülməsinə nail olana qədər mübarizəni davam etdirəcəklər. S.Hümbətova "Sizləri əmin etmək istəyirik ki, aksiya mütləq şəkildə keçiriləcək, sadəcə, aksiyanın vaxtı dəyişib. İstəyirik ki, aksiya tam qanunu şəkildə keçirilsin. Biz aksiyanı fevralın 8-də keçirməyi planlaşdırmışıq. Qarşıdakı müddət ərzində yenidən Tiflis Meriyasından aksiya keçirməyimizə icazə verməsini tələb edəcəyik".

O, həmçinin, qeyd etdi ki, 20 Yanvar tarixində Axalkalaki rayonunun Buqaşen kəndində Abxaziya və Dağlıq Qarabağ münaqişələrində iştirak etmiş separatçı Mixail Avaqyanın abidəsinin ucaldılması soydaşlarımızın qəzəbinə səbəb olub və hər bir azərbaycanlı hökumətdən o abidənin dağıdılmasını tələb edir. O vurğuladı ki, bu abidənin ucaldılması həm ölkə daxilində böyük münaqişələrin yaranmasına, həm də qardaş ölkə Azərbaycanla münasibətlərin pozulmasına zəmin yaradacaq. "Milli dini və siyasi mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar separatçı M.Avaqyanın büstünün götürülməsini tələb etməyə, separatçılığa yox deməyə, Gürcüstan-Azərbaycan dostluğunun möhkəmlənməsinə öz töhfəsini verməyə borcludur. Gələcəkdə bu münaqişələrlə üz-üzə qalmamaq üçün, dövlətimizdən tez bir zamanda manda bu abidənin götürülməsini tələb edirik".

S.Hümbətova qeyd etdi ki, etiraz aksiyasında konkret şüarlar səsləndiriləcək:

- Gürcüstan-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir!

-Yaşasın Gürcüstan-Azərbaycan dostluğu!

- Gürcüstan və Azərbaycanın ərazi bütövlüyü müzakirə predmeti deyil!

-Separatçılığa və separatçılara YOX!

-Təxribatçılar, əlinizi Gürcüstan-Azərbaycan dostluğundan çəkin!

-Separatçı M.Avaqyanın büstü götürülsün!

S.Hümbətova qeyd etdi ki, onları heç kəs mübarizəni sona qədər davam etdirməkdən çəkindirə bilməz. O vurğuladı ki, etiraz aksiyasının keçirilməsinə nail olmaq üçün bütün konstitusion hüquqlarından istifadə edəcəklər. "Aksiya keçirilərkən hər kəs gəlib meydanda hadisəyə öz etirazını bildirəcək. Bu aksiyanı təşkil etməkdə məqsədimiz isə gələcəkdə bu münaqişələrlə üz-üzə qalmamaq üçün, dövlətimizdən tez bir zamanda bu abidənin götürülməsini tələb etməkdir. Çox xahiş edirik ki, başda bütün ictimaiyyət nümayəndələri, ictimai-siyasi simalar olmaqla, hər kəs bizə qoşulsun" - deyə müsahibimiz bildirdi.

O, həmçinin, Gürcüstan parlamentinin azərbaycanlı deputatları Ruslan Hacıyevi, Mahir Dərziyevi, Azər Süleymanovu, Savalan Mirzəyevi və başqalarını da onların etiraz səsinə səs verməyə çağırdı.

S.Hümbətova təəssüflə bildirdi ki, Gürcüstan parlamentinin azərbaycanlı deputatları etiraz aksiyasına dəstək vermirlər: "Azərbaycanlı deputatların bizim keçirməyi planlaşdırdığımız aksiya ilə bağlı heç bir dəstəyini görmürük, onlar bizə dəstək vermirlər. Bu gün azərbaycanlı deputatlar Avaqyanın abidəsi ilə bağlı səslərini belə çıxarmırlar. Sadəcə, azərbaycanlı deputat Azər Süleymanov parlamentdə bu məsələni qaldırıb. Azərbaycanlı deputatlardan heç bir dəstəyimiz yoxdur".

***Aygül İsayeva:** "Meriyadan bildiriblər ki, Zaza Saralidze parlamentin qarşısında çadır qurub və o, ərazini zəbt edib, buna görə də azərbaycanlılara orada aksiya keçirməyə icazə verilməyib"*

***Sevinc Hümbətova:** "Azərbaycanlı deputatlardan heç bir dəstəyimiz yoxdur"*

Qeyd edək ki, Gürcüstan parlamentində azərbaycanlı deputat Azər Süleymanov Axalkalakidə Qarabağ müharibəsində iştirak etmiş erməni M.Avaqyana ucaldılmış heykəlin götürülməsi tələbi ilə çıxış edib. Vahid Milli Hərəkat Partiyasının deputatı A.Süleymanov 2019-cu ilin yaz sessiyasının ilk iclasında çıxış edərək dünya azərbaycanlılarının hüzn günü olan 20 Yanvarda separatçıya Gürcüstan torpağında büst qoyulmasını pisləyib və hökuməti bununla bağlı ciddi addım atmağa çağırıb: "Nəyə görə əliyalın azərbaycanlılara qarşı vuruşan, Xocalıda dinc insanları qətlə yetirən və Azərbaycan xalqının düşməni olan M.Avaqyana Gürcüstan torpağında büst qoyulub? Ən pisi də budur ki, açılışda Gürcüstan dövlətinin deputatları, bələdiyyə sədri, mer və Ermənistanın ölkəmizdəki səfiri iştirak ediblər. Bu, xalq arasında böyük bir narahatlıq və ajiotaj yaradıb. Cənab Kobaxidze, mən sizdən cavab istəyirəm. Sizin deputatlarınız orada iştirak edib və istəyirəm ki, siz buna qiymət verəsiniz. Cənab Kobaxidze, bizim xahişimiz odur ki, Gürcüstanın imicinə yaraşmayan büst oradan götürülsün və bu kimi hallar Gürcüstanda bir daha təkrarlanmasın".

Gürcüstan azərbaycanlılarından aldığımız məlumata görə, A.Süleymanov M.Avaqyanın abidəsi ilə bağlı çıxış edərkən zalda ilginc anlar yaşanıb. Belə ki, azərbaycanlı deputatlar Ruslan Hacıyev, Mahir Dərziyev və Savalan Mirzəyev ona dəstək vermək əvəzinə zalı tərk ediblər. A.Süleymanov çıxış edərkən nəyə görə hakim partiyanın azərbaycanlı deputatları R.Hacıyev, S.Mirzəyev və M.Dərziyev ona dəstək verməyib və onun çıxışını dinləməmək üçün



zalı tərk ediblər? Onların bu addımı atmaqda məqsədləri nə olub?

Adları çəkilən deputatların hansı səbəbdən belə bir addım atmalarının səbəbləri tam olaraq məlum olmasa da, soydaşlarımız qeyd edirlər ki, Gürcüstan hökuməti tərəfindən hər üç deputata bu barədə danışmamaq barədə göstəriş verilib. Gürcüstanda yaşayan soydaşlarımız bu deputatların A.Süleymanovla həmrəy olmamasını təəssüflə qarşılayırlar. Onlar qeyd edirlər ki, "sapı özümüzdən olan baltalar" öz əməllərindən əl çəkib həmrəy olsalar, həm fəalların keçirmək istədikləri aksiya baş tutar, həm də tez bir zamanda daşnak ideologiyasına qulluq etmiş cani M.Avaqyanın büstü yerlə-yeksan edilər.

***İradə SARIYEVA***

**Azərbaycanın "Turan" informasiya agentliyinin redaktoru Şahin Hacıyevin öz işçi qrupu ilə birlikdə Ermənistanda olması ilə bağlı məlumatlar yayılıb. Erməni KİV-ləri bu səfəri ciddi şəkildə diqqətdə saxlayır və bildirirlər ki, Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən akkreditə olunmuş Azərbaycan jurnalistləri səfərləri zamanı siyasətçilər və jurnalistlərlə görüşlər keçiriblər.**

# İrəvanda saxta genosid abidəsini ziyarət edən Azərbaycan jurnalistləri, qaranlıq missiyanın pərdəarxası...

***Azər Həsrət:** "Şəxsən mənim də yolum düşsə, gedib o abidəyə baxaram"*



*"Heyətə gəlincə, səhv etmirəmsə, onunla gedənlər..."*

Ən maraqlısı isə budur ki, həmin məlumatlarda azərbaycanlı jurnalistlərin bir qrupunun "erməni soyqırımı qurbanları"nın abidəsini ziyarət etdiyi bildirilir.

Ermənistan prezidentinin müşaviri Tevan Poqosyan "Facebook" səhifəsində İrəvanda olan Şahin Hacıyevə müraciət edib və ona müsahibə verib. Poqosyan Azərbaycan jurnalisti ilə şəklini paylaşıb və sonuncunun onun sözlərini təhrif etməyəcəyinə söz verdiyini bildirib.

Tevan Poqosyan onu da vurğulayıb ki, Azərbaycan jurnalistinin məqsədi "Ermənistanın ictimai rəyini başa düşməkdir".

Yeri gəlmişkən, Ş.Hacıyev "Facebook" sosial şəbəkəsindəki səhifəsində Ermənistana səfəri ilə əlaqədar hələ heç nə yazmayıb. Bununla belə, "Turan" xəbər agentliyi fevralın 5-də jurnalistin Ermənistana səfəri barədə bəzi təfərrüatları açıqlayıb. "Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev bununla bağlı bildirib ki, agentliyin redaktoru Şahin Hacıyev Ermənistanın rəsmi və qeyri-rəsmi nümayəndələri ilə görüşüb: "Şahin Hacıyev onlardan bir sıra məsələlərlə bağlı müsahibələr alıb. Bunlar Azərbaycan-Ermənistan münasibətləri, Qarabağ mövzusu və Ermənistandakı vəziyyətlə bağlı olub. Silsilə müsahibələr olub və bu müsahibələr, reportajlar turan.az saytında yayımlanacaq".

M.Əliyevin sözlərinə görə, bu rəsmi görüşlərin baş tutması üçün müvəqqəti akkreditasiya şərt olub. Onun dediyinə görə, akkreditasiya müvəqqəti, 2-3 günlük olub: "Bu sistem əksər ölkələrdə, Azərbaycanda da belədir. Xarici jurnalistlərə ölkəmizdə rəsmi orqanlarla çalışmaq üçün müvəqqəti akkreditasiya verilir. Sabah hər hansı KİV-in əməkdaşı Ermənistana rəsmi müsahibələr üçün getsə, o da akkreditasiyadan keçiriləcək".

M.Əliyev bildirib ki, bu səfər və akkreditasiya faktı "Turan"a qarşı istifadə oluna bilməz: "Çünki biz bu səfər barədə Azərbaycanın Prezident Aparatını, Xarici İşlər Nazirliyini, Sərhəd Xidmətini məlumatlandırmışıq. Müvəqqəti, üçgünlük akkreditasiya isə bu prosedurun təbii mərhələsidir".

Göründüyü kimi, M.Əliyev səfərin Azərbaycanın rəsmi qurumları ilə razılaşdırıldığını deyir. Ancaq indiyə kimi hər hansı rəsmi qurum bu mövzunu şərh etməyib. M.Əliyevin adlarını çəkdiyi qurumlardan bizim də münasibət öyrənmək cəhdlərimiz alınmadı. Ancaq məlumdur ki, heç bir qurum hansısa azərbaycanlı jurnalistə məsləhət görməz ki, gedib Ermənistanda qondarma "soyqırım" abidəsini ziyarət etsin. Bəllidir ki, indiyə kimi müxtəlif layihələr və tədbirlər çərçivəsində bizim bəzi millət vəkillərimiz və jurnalistlərimiz Ermənistanda səfərdə olublar. Belə səfərlərin reallaşması ermənilərin Türk dünyasına şantaj etmək vasitəsinə çevirdiyi qondarma "soyqırım" abidəsini ziyarət üçün əsas ola bilərmi?

**Media məsələləri üzrə ekspert Azər Həsrət qəzetimizə açıqlamasında bildirdi ki, bu səfərlə bağlı yetərincə məlumat olmadığı üçün, geniş şərh vermək olmur:** "Hələlik təmkinli davranmalıyıq. Yalnız erməni KİV-lərinin yazdıqlarına görə hansısa nəticələri çıxara bilmərik. Agentliyin rəhbəri deyir ki, Azərbaycan dövlətinin bu səfərdən xəbəri var. Hər halda, bu qədər də yalan olmaz. Çünki olmasaydı, qurumlar həmin məlumatı təkzib edərdilər. Görünür, bizim də bilmədiyimiz məqamlar var ki, Azərbaycan dövləti bu məsələdə təmkinli davranır. Qondarma "soyqırım" abidəsinin ziyarət edilməsinə gəldikdə isə, mən düşünmürəm ki, Şahin Hacıyev onu sevdiyindən ziyarət edib. Şəxsən mənim də yolum düşsə, gedib o abidəyə baxaram. Baxmaqla ehtiram arasında fərq çoxdur. Gözümlə erməni saxtakarlığını görmək üçün baxaram. Düşünürəm ki, Şahin Hacıyev də o məqsədlə gedə bilər. Yeni bir jurnalist marağını erməni KİV-ləri başqa istiqamətlərdən interpretasiya edirlər. Ola bilər ki, səfərin proqramı genişdir. Bu baxımdan da bizim lehimizə və əleyhimizə olan bütün detalları araşdırırlar. Heyətə gəlincə, səhv etmirəmsə, onunla gedənlər azərbaycanlı deyillər. Çox güman ki, bu, hansısa missiyanın tərkib hissəsidir. Ona görə də Azərbaycan dövləti məsələnin içindədir.

Gələndən sonra yəqin ki, özünün də açıqlamaları olacaq. Düşünürəm ki, belə səfərlərin olmasının ziyanı yoxdur. Azərbaycan mediasının Ermənistandakı ictimai rəyi yaxından izləməsi zəruridir. Demirəm ki, belə səfərlər kütləvi olsun. Amma ayrı-ayrı fərdlərin, xüsusilə də təcrübəli jurnalistlərin belə səfərlərdə iştirakının bizə heç bir ziyanı olmaz".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycanın ilk yaranan siyasi partiyası olan Azərbaycan Milli İstiqlal Partiyası 2011-ci ildən indiyə kimi sədrsiz fəaliyyət göstərir. Partiyanın son sədri Yusif Bağırzadə olub. Onun istefasından sonra bu siyasi təşkilat özünə ya sədr seçə bilmir, ya da seçmək istəmir. Hər halda, sədrsiz fəaliyyətin uzun dönəmi əhatə etdiyi bizi AMİP funksionerlərinin bu məsələyə münasibətini öyrənməyə vadar etdi.**

# İllərdən bəri sədrsiz işləyən müxalifət partiyası - AMİP...

***Əli Orucov:** "Bu, sırf texniki məsələlərlə əlaqəlidir"*




*"Biz bunu partiyanın sıravi üzvlərindən də eşidirik, bəzi funksionerlərdən də"*

**Partiyanın funksioneri Əli Orucov qəzetimizə açıqlamasında bildirdi ki, sədrin olmamasının birinci səbəbi qurultayın keçirilməməsidir:** "2011-ci ildən AMİP qurultay keçirmir. Bu, təbii ki, AMİP-in fəaliyyətinə heç bir maneçilik törətmir. Çünki nizamnaməyə görə, qurumun cari fəaliyyətini baş katiblik institutu tənzimləyir. İstənilən halda, partiyanın sədrsiz fəaliyyəti o qədər də ürəkaçan deyil. Yəqin ki, partiyanın müvafiq qurumları bununla bağlı konkret qərarını verəcək. Qurultayı bizdə Mərkəzi Şura çağırır. Mərkəzi Şuranın yaxınlarda toplanacağı ilə bağlı Siyasi Şuranın qərarı var. Orada bir sıra məsələnin müzakirəsi gözlənir. Yeni təkliflərin olacağı istisna edilmir".

Partiya funksionerinin sözlərinə görə, AMİP-in daxilində də sədrin seçilməsi ilə bağlı təkliflər eşidilir: "Biz bunu partiyanın sıravi üzvlərindən də eşidirik, bəzi funksionerlərdən də. Biz hər kəsin fikrinə hörmətlə yanaşırıq. Partiyanın qurultayı yalnız sədri seçmir. Eyni zamanda, çox vacib məsələlərlə də bağlı qərarlar qəbul edir. Belə qərarların qəbul edilməsinə AMİP-in doğrudan da ehtiyacı var. Qurultayın keçirilməməsinin heç bir siyasi səbəbi yoxdur. Bu, sırf texniki məsələlərlə əlaqəlidir. Artıq qurultay nümayəndələri də hazırdır. Texniki məsələlərin də həllinin kökündə maliyyə problemi durur. Bilirsiniz ki, müxalif partiyaların maddi vəziyyəti o qədər də ürəkaçan deyil. Bu məsələlər həllini tapan kimi qurultay keçiriləcək".

Doğrudan da qəribə bir mənzərə yaranıb. Bir partiya maddi çətinliyi əsas gətirərək 8 ildir qurultay keçirmir və bunun da müqabilində sədrsiz fəaliyyətə üstünlük verir.

Amma bu səbəb o qədər də inandırıcı görünmür. Çünki müasir texnologiyaların inkişafı imkan verir ki, istənilən qurum hətta onlayn qaydada özünə qurultay keçirsin, bu da heç bir xərc tələb etmir. Yetər ki, AMİP-in sədrli fəaliyyət göstərmək istəyi olsun. Hələlik isə belə bir niyyətin olduğunu biz sezə bilmədik...

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan ordusunun ixtiyarında olan ən müasir silahlar bu gün işğalçı Ermənistanda kifayət qədər böyük əndişə yaradır və düşmən ölkə məhz bu səbəbdən hər vəchlə Dağlıq Qarabağ münaqişəsinin yenidən başlana biləcəyindən böyük qorxu keçirdiyini gizlətmir. Çünki yeni savaşda erməni tərəfinin böyük məğlubiyyətə uğrayacağı qaçılmaz reallıq kimi çıxış edir.**




# Azərbaycan İsraildən silah alışını artırdı, Ermənistan yeni xofda...

Digər tərəfdən, erməni tərəfini yenə ən çox narahat edən məqamlardan biri ölkəmizin müxtəlfi xarici dövlətlərdən ən müasir hərbi texnika almasıdır. Məhz belə bir vaxtda erməni tərəfinin əndişəsini artıran növbəti hadisə baş verib. Söhbət Azərbaycanın İsraildən yeni müasir pilotsuz uçuş aparatları ala bilməsindən gedir. Xatırladaq ki, Azərbaycanın hərb potensialının gücləndirilməsində, ordumuzun müasir texnika ilə təminatında İsraildən alınan silahların xüsusi çəkiyə malik olması heç kimə sirr deyil. Azərbaycan daim bu ölkədən ən yeni hərbi texnologiyalar idxal edir. Yayılan məlumata görə, İsrailin Müdafiə Nazirliyi "Aeronautics Defense Systems Ltd" şirkətinin Azərbaycana pilotsuz təyyarələr satması üçün lisenziyanı yeniləyib. Azərbaycan İsrail şirkətinin istehsalı olan "Orbiter 1K" pilotsuz təyyarəsini yenidən almaq istəyir. "Aeronautics" şirkətinin yaydığı məlumatda isə bu xüsusda bildirilir: "Müdafiə Nazirliyi bəyan edib ki, lisenziyanın dayandırılması ilə bağlı qoyulan qadağa təcili olaraq ləğv edilir. Şirkət yuxarıda adı çəkilən müştəriyə tez bir zamanda dronlarını çatdırmağa başlayacaq".

İsrailin "Maariv" mətbu orqanının yazdığına görə, Azərbaycan "Orbiter 1K" kamikadze-dronları ilə maraqlanıb və bununla bağlı "Aeronautics" şirkətinə müraciət edib. Erməni şərhçi Hakop Badalyan isə yazır ki, "Aeronautics" Azərbaycanın İsraildə pilotsuz təyyarə ala biləcəyi tək şirkət deyil: "İsrailin müdafiə sənayesi üzrə ixtisaslaşmış müxtəlif şirkətləri Azərbaycanla əməkdaşlıq edir. İsrail Müdafiə Nazirliyinin sonuncu qərarı da fevralın 27-də İrana səfər etməyə hazırlaşan Nikol Paşinyana cavab hesab oluna bilər. İsrail Ermənistan-İran münasibətlərini diqqətlə izləyir". İsrail mətbu orqanı onu da qeyd edib ki, Azərbaycan 2016-ci ilin aprel döyüşlərində İsrail istehsalı olan "Harop" kamikadze dronlarından istifadə edib. Həmin döyüşlərdə bu kamikadze dronun sayəsində bir əməliyyatda 7 erməni hərbçisi məhv edilmişdi.

Bundan başqa, Azərbaycan İsraildən "SkyStriker" zərbə PUA-sı da alıb. Bu silah İsrail hərbi sənaye kompleksinin PUA istehsalı üzrə ixtisaslaşmış dünyaca məşhur şirkəti olan "Elbit Systems" müdafiə sənaye şirkəti tərəfindən istehsal edilir. Onun da ilk xarici müştərisi Azərbaycandır. Məlumat üçün bildirək ki, "SkyStriker" taktiki zərbə təyinatlı PUA-dır. PUA müxtəlif hədəfləri aşkarlamaq, koordinatlarını təyin etmək və onlara zərbə endirmək üçün nəzərdə tutulur. Həmçinin uzaqdan idarə olunan elektro-optik tuşlamaya malik "gəzən sursat" əməliyyat sisteminə malikdir. PUA-nı idarə edən operator onu hədəfə doğru yönəltmək, praktiki olaraq təmas nöqtəsinə çatdırmaq və eyni zamanda hücumu ləğv etmək imkanına malikdir.

"SkyStriker"in yüksək texniki xüsusiyyətləri operatorlara hədəfləri aşkarlamağa, koordinatlarını təyin etməyə və onu hədəflə təmas nöqtəsinə dəqiq zərbə endirməyə imkan verir. Uçuş vaxtı diqqət cəlb edən hədəf müəyyən edilmədikdə operator PUA-nı geri qaytarır və o, paraşütün köməyi ilə yerə enə bilir. Uçuş sürəti qabiliyyətinə görə PUA bir neçə dəqiqə ərzində onlarla kilometr məsafə qət edə bilir. Hədəf bölgəsinə çatdıqdan sonra PUA iki saata qədər hədəfi müşahidə və ya operatorun komandası ilə hədəfə zərbə endirə bilər. Hədəfə zərbə bomba və yaxud raket vasitəsilə deyil, daxili enerjisi sayəsində PUA-nın yüksək sürətlə özünü hədəfə çırpması metodu ilə endirilir. Onun əməliyyat sistemi istənilən hədəfi istənilən istiqamətdən, istənilən bucaq altında məhv etməyə imkan verir. "SkyStriker" operatoru zərbədən iki saniyə əvvəl döyüş başlığının istifadə əmrini ləğv edə və ya onu yenidən aktivləşdirə bilər, məhv edilməsi üçün hədəf olmadıqda isə təhlükəsiz şəkildə start mövqeyinə və ya əmr edilən koordinatlara qayıda bilər.

Bununla yanaşı, Azərbaycan Hərbi Hava Qüvvələrinin inventarında İsrail istehsalı olan "Orbiter-2M" və "Aerostar" tipli pilotsuz uçuş aparatlarına rast gəlmək olar. 2011-ci ildə ölkəmizlə İsrail şirkətinin birgə qurduğu "AZAD sistemlər" müəssisəsi fəaliyyətə başlayıb. Bu müəssisədə "Orbiter-2" pilotsuz uçuş aparatlarının istehsalı həyata keçirilir. İndinin özündə ordumuzda istifadə edilən "Heron" və "Hermes" tipli pilotsuz uçuş aparatları da İsrail istehsalıdır. Ümumiyyətlə, İsrail yalnız öz ordusuna verdiyi və digər ölkələrin malik olmadığı pilotsuz uçuş aparatlarının istehsalını Azərbaycana etibar edir. Digər tərəfdən, Azərbaycan uzun müddətdir ki, hərbi-siyasi sahədə İsrail dövləti ilə əməkdaşlıq edir və bu əməkdaşlıq nəticəsində Təl-Əvivdən təkcə PUA-lar yox, digər döyüş texnikaları da alınıb. Bütün bunlara qarşı Ermənistanın istənilən etirazına İsraildə ümumiyyətlə əhəmiyyət verilmir. Ölkələrimiz arasında genişlənən hərbi əməkdaşlıq isə bundan sonra da İsrailin ən yeni texnikalarının ordumuzun ixtiyarında olacağını deməyə əsas verir.

***Nahid SALAYEV***

---

**Məlum olduğu kimi, Rumıniya Baş naziri Viorika Dançila Avropa İttifaqını (Aİ) insan hüquqları və demokratiya məsələlərində digər ölkələrə, hətta özünün Şərqi Avropadakı üzv dövlətlərinə qarşı ikili standartlar sərgiləməkdə günahlandırıb. Belə ki, Avropa İttifaqı Şurasına sədrliyi təhvil alan Rumıniyanın xanım Baş naziri Dançila mətbuata açıqlamasında bir sıra məqamlara toxunub.**

# İkili standartlar Avroittifaq üçün baş ağrısına çevrilir, Azərbaycan bunu onlara çoxdan xəbərdarlıq etmişdi...

## *Məhərrəm Zülfüqarlı: "Belə ikili standartlar Avropa İttifaqının get-gedə nüfuzdan düşməsinə və dağılmasına gətirib çıxara bilər"*

O, Fransada "sarı jiletlilər"in keçirdiyi aksiyalar zamanı polisin etirazçılara qarşı güc və şiddət tətbiq etdiyini, lakin Avropa liderlərinin buna səssiz qaldığını, əvəzində isə guya insan haqlarının pozulduğu iddia edilən digər ölkələrin əleyhinə silsilə qərarlar verildiyini diqqətə çatdırıb:

"Rumıniyaya da başqa ölkələrin etdiyi kimi davranmağa icazə verilmir. Ölkəmizdə korrupsiya və hökumət əleyhinə qanunsuz aksiyalarla bağlı gördüyümüz təhlükəsizlik tədbirlərini qınayırlar. Amma Fransada "sarı jiletlilər"in keçirdiyi etirazlarda nələrin baş verdiyini, polisin qeyri-insani davranışını hamımız gördük. Kimsə Avropa Parlamentinə gəlib Fransa haqqında qərar çıxarılmasını istəmədi. Bu, ikili standartdır".

Xanım Dançila onu da qeyd edib ki, Avropa Komissiyasının antikorrupsiya siyasəti çərçivəsində apardığı monitorinqlə bağlı illik hesabatında yalnız Rumıniya və Bolqarıstanın adının çəkilməsi haqsızlıqdır: "Aİ Rumıniya, Bolqarıstan və digər ölkələrə qarşı ədalətli davranmır. Deyirlər ki, guya bu monitorinq mexaniz-



mi ölkələrimizə kömək etmək üçündür. Mən Niderland, Fransa və Almaniyada da çox böyük korrupsiya faktları görmüşəm. Lakin heç kim bu ölkələrə qarşı da oxşar mexanizmin tətbiqini zəruri görmür".

Göründüyü kimi, Aİ nəinki digər ölkələrə qarşı, eyni zamanda, ittifaqın üzvü olan ölkələrə münasibətdə belə ikili standartlardan çıxış edir. Rumıniya, Bolqarıstan artıq neçə ildir Aİ-nin tamhüquqlu üzvləridir. Ancaq qurum keçmiş sosialist düşərgəsində təmsil olunan Şərqi Avropa ölkələrinə ögey münasibət sərgiləyir. Həmin ölkələrdə hansısa neqativ hadisə baş verəndə, dərhal onu əndazədən çıxarıb kəskin münasibət ortaya qoyurlar. Halbuki, bu cür yanaşma bəyan etdikləri prinsiplərə daban-dabana ziddir. Hansısa ölkədə insan hüquqları pozulursa, həmin ölkənin siyasi və iqtisadi statusuna görə mövqe ortaya qoyulursa, deməli, Aİ ali qanunlara hörmət qoymur və buna korporativ maraqlardan yanaşır. İkili standartlar təkcə Fransada "sarı jiletlilər"in timsalında özünü göstərmir. Digər aparıcı dövlətlərdə də baş verən pozuntuları Aİ və onun təsisatları görməzdən gəlirlər. Məsələn, Almaniya iqtisadi baxımdan Aİ-nin lokomotivi olduğu üçün, qurum bir sıra məsələlərdə bu ölkədə baş verənlərə göz yumur. Məlumdur ki, Avropadakı miqrantların çoxu Almaniyada məskunlaşıb. Ancaq Almaniya qədər heç bir Avropa ölkəsində miqrantların hüquqları kobud və kütləvi şəkildə pozulmur. Dünyanın gözü qabağında miqrantlar alçaldılır, ən ağır işlərdə işlədilir, polis tərəfindən zorakılığa məruz qalırlar. Ancaq indiyədək nə Aİ, nə də qurumun digər təsisatları buna öz münasibətlərini bildirməyiblər. Demokratiyadan danışan Aİ üçün miqrantlar sanki insan deyil. Ancaq bloger Mehman Hüseynov məsələsində o qədər proseslər şişirdildi ki, Avropa Parlamenti bununla bağlı qərəzli qətnamə qəbul etməli oldu.

## *"Qurum öz üzvlərinə münasibətdə ögey-doğmalıq siyasəti həyata keçirir"*

Bütün bu deyilənlərin fonunda, ekspertlər Aİ-nin ikili standartlardan çıxış etməsini necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, Aİ-nin bu cür ikili standartlardan çıxış etməsi qurumun gələcəyi üçün yaxşı perspektiv vəd etmir.** Onun fikrincə, Aİ öz üzvlərinə münasibətdə ögey-doğmalıq siyasəti həyata keçirir: "Belə ki, Qərbi Avropa ölkələri ilə Şərqi Avropa ölkələrinə fərq qoyulur. Aİ-nin yaradıcısı olan Qərbi Avropa ölkələri sonradan quruma üzv olan dövlətlərə eyni münasibət bəsləmirlər. Həmin dövlətləri Aİ üçün əlavə yük hesab edirlər. Xüsusən də əvvəllər sosialist düşərgəsində təmsil olunan, iqtisadi baxımdan geri qalan Bolqarıstana, Rumıniyaya, Macarıstana münasibət yaxşı deyil. Bütün bunlar Aİ-nin yeritdiyi siyasətin səmimi olmadığını, ikili standartlardan çıxış etdiyini ortaya qoyur. Fransada baş verən hadisələr və Avropa təsisatlarının bunu görməzdən gəlməsi deyilənləri bir daha sübut edir. Azərbaycana münasibətdə ötən ay Avropa Parlamentinin qəbul etdiyi qərəzli qətnamə deyilənlərə başqa bir əyani sübutdur. Bütün bunlar Aİ üçün yaxşı perspektiv vəd etmir. Belə ikili standartlar Aİ-nin get-gedə nüfuzdan düşməsinə və dağılmasına gətirib çıxara bilər".

***Vidadi ORDAHALLI***

**Çap mətbuatımızın yeni mərhələsini açmaq və onunla internet media resurslarının sərhədlərini daha dəqiq şəkildə bir-birindən ayırmaq, nəticədə elə internet media resurslarının özlərinin də inkişafı üçün təzə mərhələ açmaq məqsədilə müəyyən yeniliklər edən KİVDF-nin son addımlarını da ləkələmək fürsətini əldən qaçırmaq istəməyənlər yenidən ayaqlanıblar.**



Aydın QULİYEV

# Arif Əliyevin yersiz "göz yaşları" və KİVDF-nin ideya müəllifləri...



Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu on ilə yaxın bir müddətdə qəzetlərin maliyyələşdirilməsi meyarlarında növbəti dəfə dəyişiklik edib. 2010-cu ildən indiyədək Fond maliyyələşdirmə üçün əsas meyarlar olan çap tirajı və yayım sayını dörd dəfə yeniləşdirib. Nəticədə, məsələn, meyar olaraq çap tirajı 5 min, yayım nüsxələri 2 minin üstündə sonuncu dəfə qərarlaşıb. KİVDF bu yeni meyarları göydəndüşmə elan etmədi. Hələ ötən ilin yayında qəzetlərlə müqavilə imzalayanda icraçı direktor Vüqar Səfərli hamıya açıq demişdi ki, 2019-cu ildə maliyyələşmənin bir qədər sərtləşdirilmiş meyarları tətbiq olunacaq və hər bir qəzet yeni meyarlarla ayaqlaşmaq üçün işini indidən bilməlidir. Yeni meyarlara keçmək üçün KİVDF rəhbərliyi 2018-ci il dekabrın sonlarında 6 yox, 3 aylıq maliyyələşdirmə dövrü üçün müsabiqə şərtlərini elan etdi, bu il yanvarın əvvəllərində qəzetlərlə 3 aylıq dövr üçün müqavilə imzaladı, bir neçə həftədən sonra isə növbəti 3 aylıq dövr - aprel-iyun ayları üçün yeni meyarlar əsasında müsabiqənin şərtlərini elan etdi, qəzetlərlə az əvvəl imzalanmış 3 aylıq müqavilə öhdəliklərini pozmadan, sadəcə növbəti 3 ay üçün yeni meyarları iki ay qabaqcadan elan etməklə qəzetlərə özlərini toparlamaq üçün son dəfə iki aylıq hazırlıq fürsəti verdi. İndi əlində müqaviləsi olan 30-dan çox qəzet həm köhnə, lakin qüvvədə olan şərtlərlə çapını davam etdirir, həm də təzə meyarlar əsasında ikinci 3 aylıqda da çapını davam etdirmək üçün özündə güc hiss edən qəzetlər fəal hazırlıqlar içindədir. Məsələ bu qədər sadə olduğu halda bəzilərinin görünməyən qərəz və qisasçılıq motivləri ilə məsələni dolaşdırmaq cəhdləri, təəssüf ki, hələ də davam edir. Məsələn, ən son dəfə qərəzi bu gün də üzdə olan jurnalistlərin sabiq həmkarı Arif Əliyev püskürüb - Turan Agentliyinə.

Müsahibəni götürən müxbirin qərəzi Arif Əliyevdən qabaq özünü göstərir. Bəlkə sual da, cavablar da eyni adam tərəfindən hazırlandığı üçün belə oxşarlıq var. Bəlkə Arif Əliyev müsahibədən qabaq müxbiri qərəz tonu üstündə "silahlandırıb", bilmirik, kəçirik əsas məsələyə...

Yazının ilk cümləsini oxumaq kifayətdir ki, qalan hissələrin başdan-başa müxbir-müsahib duetinin "qərəzli yaradıcılıq məhsulu"ndan başqa bir şey olmadığını görəsən. Müxbirin ilk cümləsi - "KİVDF 20-yə yaxın qəzetin maliyyələşməsini ləğv etdi. Bundan sonra cəmi 10 qəzet KİVDF tərəfindən maliyyələşəcək." Ən sadə və mədəni formada "yalançıya ayıb olsun" deyib, müxbirin günahının üstündən keçərdik. Ancaq bağışlanmaz haldır ki, hamıya "ağıl vermək" istəyən həmkarımız Arif Əliyev müxbirin ağ yalanı arxasınca başını aşağı salıb quzu kimi gedir, müxbirdən soruşmur ki, ay bacı, ay qardaş, maliyyəsi ləğv olunan o 20 qəzet hansıdır, bircəsinin adını göstər. Arif müəllim bunu etmir, edə də bilməz, çünki müxbirlə birlikdə "bıçağı itiləyib" ona görə meydana düşməyib ki, həqiqəti desin, KİVDF-nin çap mediasının inkişafı üçün gördüyü işlərə obyektiv qiymət versin, desin ki, KİVDF olmasaydı ötən on ildə hətta bundan sonra fəaliyyətini davam etdirmək gücündə olduğu deyilən bir neçə qəzet də ortadan çıxıb yox olardı, elə vaxtilə Arif müəllimin özünün rəhbərlik etdiyi, ancaq maliyyəsini beynəlxalq təşkilatlardan aldığı "Gün" qəzetinin maliyyə kəsilən anda yox olub getməsi kimi... Beləliklə, Azərbaycan çap mediasının 99 faiz sıradan çıxdığı ilk dünya dövlətinə çevrilərdi və sair. Azacıq ədalətli və obyektiv olmağı bacarsa, Arif Əliyev üçün bunun ardınca deyə biləcəyi şeylər çoxdu. Əvəzində isə qərəzli tonunu bir az da artırır...

Kim, nə vaxt, harada, hansı rəsmi tribunada "bundan sonra Azərbaycanda cəmi 10 qəzet KİVDF-dən maliyyələşəcək" deyə bəyanat veribsə, Arif Əliyev onu bizə də desin. Heç bir məsuliyyət hiss etmədən "müxbir dedi, mən də təsdiqlədim" prinsipi ilə mahiyyəti tam fərqli olan işlərə qara yaxmaq dürüstlük və mətbuat siyasətinin "ən bilicisi" roluna iddialı şəxsə qətiyyən yaraşmaz.

Arif Əliyevin "camaatın vergi kimi ödədiyi vəsait qəzetlərin yolunda göyə sovruldu" sözlərinə yekəyekə danışmağın bir nümunəsi kimi baxmaq ən doğrusu olardı. Arif Əliyev son 10 ildə dövlət büdcəsinə hansı gəlirdən və nə qədər vergi ödədiyini açıqlasaydı, onun başqaları tərəfindən ödənmiş vergilərə vəkillik etməsini başa düşərdik. Arif Əliyevin "işini itirən jurnalistlərə" acıması da artıq yersiz canıyananlıq kimi görünür. Ortada qurban yoxdusa, qanı tökülən, işini itirən jurnalist yoxdusa, KİVDF-nin bağlatdığı deyilən bir qəzet yoxdusa, Arif Əliyevin səbəbsiz "göz yaşlarına" biz acıyırıq. Hələ dekabrda, həm də KİVDF-nin maliyyəni davam etdirdiyini açıq dediyi, tam başqa səbəblərdən özünü dayandıran iki qəzetdən başqa hansı qəzetin əməkdaşları işsiz qalıb? Əslində heç onlar da işsiz deyil...

Arif Əliyev, guya daha tutarlı arqument axtaranlar kimi, Prezidentin 2008-ci ildə imzaladığı KİV-in İnkişafına Dövlət Dəstəyi Konsepsiyasında da "ələk-vələk etməyə" vaxt tapır. KİVDF-nin qəzetlərə təkcə maliyyə yardımı etdiyini, Konsepsiyada göstərilmiş başqa işləri görmədiyini öz aləmində irad tutur. Yox, Arif müəllimin burda qərəzdən allahsızlığa üz tutan ədalətsizliyinə emosiyasız baxmaq olmur. Artıq dedik ki, KİVDF yaranmasaydı, ötən on ildə qəzetlərin 99 faizinin qapı-bacası bağlanacaqdı. Gözü qərəzdən örtülmüşlərin bunu görməzdən gəlməsi ilə deyil ki... Azərbaycanda hamı bunu deyir, baş redaktorlar, jurnalistlər KİVDF-ni yaratdığı üçün Prezidentə təşəkkür edirlər. Etməyənlər bilirsiz kimlərdi? O adamlardı ki... Azərbaycan mediası KİVDF-nin əli ilə öz dövlətimizdən qanuni və şəffaf maliyyə almağa başlayan anda xaricdən bulanıq maliyyələr alan qəzet rəhbərlərinin "bazarı" daralmağa başladı, sonra isə tam bağlandı. Xaricdə kimə bağlı olduğu bilinməyən fondların maliyyəsi hesabına qəzet buraxmaq yaxşıdı, Azərbaycan dövlətindən maliyyələşmək niyə pis sayılmalıdı?! Pul alıb öz dövlətinə və onun Prezidentinin siyasətinə dəstək vermək vətənpərvərlik və şərəf işidir, xaricdən maliyyə alıb yarı yolda qalmaq isə, yumşaq desək, heç də şərəfli iş deyil...

Azərbaycan mediası heç vaxt son on ildəki qədər güclü olmayıb, çünki şəffaf qaydada aldığı maliyyə ilə dövlətinin yanında olub və var. Öz dövlətinin yanında olmayan, əcnəbilərin dəstəyinin ümidinə qalan media heç vaxt güclü ola bilməz. Heç uzun yol da gedə bilməz. Bir vaxtlar qəzet çıxarmış Arif Əliyev və başqa bəzi "dostlar" bunu yaxşı bilər... İflasa uğrayan KİVDF-nin media siyasəti yox, gözünü əcnəbilərin pul kisəsinə dikərək sonda həm Azərbaycan dövlətinin, həm də əcnəbilərin maliyyəsindən əli çıxan iddialı sabiq qəzetçilərdi...

Aprelin 1-dən, həqiqətdir ki, indiki meyarlara uyğunlaşa bilməyən bir sıra qəzetlər özlərinin çap siyasını dayandıra bilər. Ancaq kimsə onlara əmr verməyib ki, aprelin 1-dən çap olunmayın. KİVDF rəhbərliyi yeni meyarlara uyğunlaşa bilməmək səbəbindən çapını dayandıran qəzetlərin onlayn versiyasını hələlik dəqiqləşməyən meyarlarla maliyyələşdirəcəyini bildirib. Yəqin ki, yaxın 2 ayda həmin meyarlar konkret məlum olacaq. İndidən "qəzetlər bağlanacaq, jurnalistlər ordusu işsiz qalacaq" kimi əsassız şüvənlər qoparmaq ciddi adamların işi deyil. Rəsmən bəyan olunub ki, qəzetlərin elektron versiyası maliyyələşəcək, jurnalistlər işsiz qalmayacaq, Arif Əliyevin nədənsə düşmən kimi baxdığı həmin jurnalistlər KİVDF-nin əli ilə dövlətdən pulsuz-minnətsiz hazır mənzilləri də almağa davam edəcəklər.

Yeri gəlmişkən, Arif Əliyevin tökdüyü qara-qura nə qədər qatı olsa da, KİVDF-nin 400-dən çox jurnalistin Prezidentdən hədiyyə olaraq mənzil almasının savabını batıra bilməz. KİVDF-nin gərəksiz olduğunu iddia edənlər özünü tam doğruldan bu təşkilata yox, ev-eşik sahibi olan jurnalistlərə düşmənçilik edir. Arif Əliyev öz dediklərinə bu qədər əmindirsə, bircə dəfə 400-dən çox jurnalistin mənzil aldığı həmin iki binanın həyətinə təşrif buyursun və uca səslə desin:"Bu binalarda evi olan jurnalistlər satqınlar, əsl vətənpərvər və peşəkar isə mənəm!"

Arif Əliyevin müsahibəsində bir az da "maniya" əlamətləri görünür. Mətbuat Şurasının, KİVDF-nin onun özünün, Elçin Şıxlı və Mehman Əliyevin ideyası ilə yarandığını iddia edir. Mətbuat Şurası ilə bağlı Arif Əliyevin hansı motivlərlə təftişçilik etdiyini "ucundan-qulağından" mən də eşitmişəm, "bir müddət sən sədr ol, sonra mən olum" kimi ortada yarımçıq qalmış bir təmənnadan umu-küsünün olduğunu da bilirəm. Ancaq daha konkret təfsilatlardan dostum Əflatun Amaşov, lazım bilsə, danışa bilər. Elçin Şıxlının və Mehman Əliyevin Mətbuat Şurasının və KİVDF-nin ideya müəllifləri olduqları barədə fikrə gəldikdə isə, ideyanın kimlərə məxsus olması önəmli deyil. Önəmli olan odur ki, ideya özünü tam doğruldur. Əgər kimlərsə bir zamanlar müəllifi olduqları ideyanın gerçəkləşməsindən fayda götürə bilmədiklərinə görə yanıb-tökülürlərsə, günahı özlərində axtarsınlar. Yetər ki, faydalı bir işin qulpundan yapışasan, qərəzli olmayasan, reallığı tərsinə görməyəsən, bu gün əli stabil çörəyə çatmış jurnalistlərin süfrəsinə düşmənçilik etməyəsən...

**Sonda, KİVDF-nin ideya müəlliflərinin kim olmasından asılı olmayaraq, on(lar)a böyük hərflərlə TƏŞƏKKÜR halal olsun.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# "İlham Əliyevin istehzalı gülüşünü və özünü itirmiş Paşinyanı gördük..."

## *Azərbaycan diplomatiyasının gücü, ermənilər günahı bir-birində görməyə başlayıblar*

**İşğalçı Ermənistanda son vəziyyətin təhlili burada Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ziddiyyətli bir vəziyyətin formalaşmaqda olduğunu göstərir. Belə görünür ki, Qarabağ məsələsi erməni cəmiyyətində yaşanan qütbləşməninin daha da dərinləşməsinə rəvac verəcək.**

Real mənzərə göstərir ki, baş nazir Nikol Paşinyan birbirindən fərqli açıqlmalar versə də, hələ Qarabağa dair heç bir ciddi danışıqlar başlatmasa da Ermənistanda keçmiş hakimiyyətin nümayəndələri, eləcə də Qarabağdakı erməni səhra komandirləri də ona qarşı şiddətli hücum başladıblar. Onlar Paşinyanı Qarabağa dair hansısa gizli plan qurmaqda günahlandırır və onun, ümumiyyətlə, danışıqlara qatılması faktını satqınlıq əlaməti hesab edirlər. Paşinyan bütün bunlara qarşı çıxsa da, əsas etğibarı ilə "Qarabağ klanı"nın bu xüsusda hücumları getdikcə şiddətlənir. Bunu erməni mediası, ekspert açıqlamaları, keçmiş hakimiyyət təmsilçilərinin fikirləri fonunda kifayət qədər aydın şəkildə sezmək mümkündür.

Belə görünür ki, barəsində bəhs edilən dairələr ölkədə Qarabağ münaqişəsi ətrafında yeni qarşıdurmaya belə getməyə hazırdır. Bunu Ermənistanın Respublika Partiyasının üzvü, erməni parlamentinin sabiq sədr müavini Eduard Şarmazanovun açıqlamalarından da aydın görmək olar. O bildirib ki, Nikol Paşinyan dövlətin qarşısında duran, eləcə də Qarabağ məsələsində olan çağırışlara tab gətirməyə qadir deyil, belə davam etdiyi halda yeganə çıxış yolu Nikol Paşinyanın istefasıdır. Özünün "Facebook" səhifəsində Eduard Şarmazanov daha sonra yazıb: "Paşinyan dövlətin qarşısında duran çağırışlara tab gətirməyə qadir deyil. Azərbaycan müharibəyə hazırlaşır, Nikolun hakimiyyəti isə Qarabağın "qəhrəmanlarına" hörmətsizlik edir. Pantürkizm təhlükəsi artır. Nikol Paşinyan isə cəmiyyəti inqilabçılara və əks inqilabçılara ayırır. Dövlət maraqlarımıza zərbə vuran, əvvəlkilərin hörmətdən salınması ilə bağlı bəyanatlar verir. Bölücü xətlər çəkmək və alternativ fikir dinləməmək, inqilabsayağı hərəkət tərzi bizim dövlətə baha başa gələ bilər. Hakimiyyət, həm də dövlət oyuncaq deyil ki, necə istəyirsən elə də sürəsən. Belə davam etdiyi halda bir çıxış yolu var. Bu çıxış yolu Nikolun bir an öncə istefa verməsidir. İstefadır".

Ermənistanın "Arovat" nəşri isə diqqəti buna yönəldir ki, Paşinyan Azərbaycan Prezidenti İlham Əliyev qarşısında duruş gətirə bilmir və bu fonda o, Qarabağ münaqişəsi ilə bağlı Bakının istəklərinə boyun əyəcək. Qəzet erməni cəmiyyətinin bunu nəzərə almasının vacid olduğunu yazır. Davosda İlham Əliyev və Nikol Paşinyanın saat yarım davam edən qeyri-rəsmi görüşü barədə isə politoloq Qurgen Yegiazaryan qəzetə açıqlamasında qeyd edir: "Burada biz Əliyevin istehzalı təbəssümü və özünü itirmiş Paşinyanı gördük. Ölkəmizi təmsil edən şəxs çox savadlı, böyük siyasi təcrübəsi olan adamla görüşüb. Odur ki, söhbət uğurlu alınmayıb. Bunu görüşdən çəkilmiş şəkillərdən də anlamaq olur.

Simasında istehzalı təbəssüm olan Əliyev və özünü itirmiş Paşinyan. Şəkildən hər şey aydın olur. Vəziyyət niyə belədir? Niyə bu günə düşmüşük?". Politoloq xatırladıb ki, bəzi mənbələr son zamanlar azərbaycanlıların Naxçıvan istiqamətində xeyli irəlilədiyini deyir: "Kənd bələdiyyələrinin başçıları əhali arasında əsassız təlaş yaradırsa, sərt şəkildə cəzalandırılmalıdırlar. Yox, belə deyilsə, 11 min hektar ərazinin itirilməsini necə başa düşək? Bundan öncə də 800 hektar torpağı geri verib adını "lazımsız ərazi" qoydular. Bu 11 min hektar da lazımsızdır?".

Ermənistanın eks-deputatı Ruben Akopyan da bildirir ki, İlham Əliyevlə Nikol Paşinyanın Davos görüşündə Qarabağ konflikti müzakirə edilib: "Xarici siyasət sferası kölgədə və kulisdə olur. Hesab etmirəm ki, Davosda müzakirə edilənlər dərhal açıqlanmalıdır. Azərbaycan tərəfinin görüşdən öncə söhbətin nədən gedəcəyi ilə bağlı tam məlumatlı olması artıq başqa məsələdir. Bizim baş nazir görüşün 1,5 saat davam etdiyini və təsadüfi olduğunu deyəndə bir növ kəndçi hiyləgərliyi etməyə çalışdı. Aydın olan odur ki, tərəflər Qarabağdan danışıb və növbəti gün məhz Davosda Paşinyana Bolton zəng etdi və söhbət Qarabağdan getdi". Onun sözlərinə görə, Paşinyan məsləhətlərə qulaq asmayacağı halda bütün Ermənistan ağır məsuliyyət altında qalacaq: "Xalqları sülhə hazırlayın" deyəndə nəyinsə baş verdiyi, prosesin getdiyi nəzərdə tutulur. Biz gərək səhvlərimizdən nəticə çıxaraq. Bütün bu dövr ərzində Azərbaycan tərəfi udub. Paşinyanın icra edilməyəcək razılaşma barədə hesabat verməvaxtı çatıb. Xalqı həyəcanlandırmaq istəməzdim, amma müharibə heç də uzaqda deyil. Allah eləsin ki, mən yanılım".

O hesab edir ki, Qarabağ münaqişəsinin həlli prosesində sülh qarşılığında ərazilərin qaytarılmasına razılaşmaq Ermənistan üçün məğlubiyyət deməkdir: "Sanki biz yalvarırıq: xahiş edirəm bizi döyməyin. Əlimdəki bulkanı da sizə verəcəyəm, əmi, yalvarıram, bircə bizi döyməyin... Paşinyan deyir ki, heç zaman "sülh qarşılığında ərazilər" ifadəsini işlətməyib. Əlbəttə, bunu deməyəcəksən. Çünki bu artıq "Madrid prinsipləri"ndə əks olunub. Sən məhz bunun sayəsində baş nazir olmusan. 2017-ci ilin sentyabrında Serj Sarkisyan artıq çantasını toplayaraq qaçmağa hazırlaşırdı. Sadəcə, hakimiyyəti təhvil verməyə adam tapmaq lazım idi, o da səni tapdı. Hakimiyyəti sənə verdi ki, evində rahat otursun".

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın razılıq verdiyi "Madrid prinsipləri" ətrafında da Ermənistanda ziddiyyətlərin dərinləşməsi hiss olunur. Qafqaz institutunun direktoru, erməni politoloq Aleksandr İsgəndəryan qeyd edir ki, Bakı "Madrid prinsipləri" üzərində danışıqları davam etdirməyə hazırdır və bunun üçün Ermənistana təzyiqlərini də artırır: "Paşinyan bu təzyiqlərə davam gətirə bilməyəcək. Düzdür, "Madrid prinsipləri" münaqişənin yekun həllinə nail ola bilməz, sadəcə əsaslı danışıqlar üçün şərait yarada bilər". Onun sözlərinə görə, Qarabağ münaqişəsi ilə bağlı "Madrid prinsipləri" öz aktuallığını itirməyib.

Məsələyə eyni yanaşmanı erməni politoloqu Qrant Məlik-Şahnazaryan da sərgiləyir. O bildirir ki, Paşinyan Qarabağ məsələsinə görə sərt təzyiqlərlə üzləşir və hətta ən böyük hamisi sayılan ABŞ ondan konkret addımlar tələb edir: "Öncə xatırladım ki, ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri Con Boltonun Nikol Paşinyanla Qarabağ münaqişəsini müzakirə etməməsi, ancaq iki-üç gün sonra Azərbaycan Prezidenti İlham Əliyevlə danışması və faktiki olaraq bu məsələni müzakirə etməsi narahatedicidir". Erməni politoloqun fikrincə, danışıqlar prosesinin yenidən başlamasına sürətli təkan verilib, hər kəs öz sahəsində prosesi sürətləndirməyə və nəticəni təmin etməyə çalışır: "Birləşmiş Ştatlar üçün problem aydındır, onların bizim regionda İran İslam Respublikası, Yaxın Şərq və Türkiyə ilə bağlı məsələləri var. Görürlər ki, rus-türk ittifaqı yaranır, daha çox vacib problemlərin həlli üçün onlara mane ola biləcək və həmin məsələləri sınaqdan keçirirlər. Çalışırlar daha tez həll etsinlər". Ekspertin fikrincə, Qarabağ münaqişəsi bunlardan biridir: "Bu, Birləşmiş Ştatlar üçün heç bir geosiyasi vəziyyəti dəyişməyən münaqişədir. Ancaq İran sərhədi ətrafındakı gərginlik digər dövlətlərə bölgəyə daxil olmağa və öz mövqelərini gücləndirməyə imkan verəcək. İndi bunun üçün Birləşmiş Ştatlar Qarabağ məsələsinin həllinə təkan verməyə çalışır".

Şahnazaryanın sözlərinə görə, belə vəziyyətdə Qarabağ məsələsi ətrafında yaranan durumdan çıxış edib Paşinyana qarşı mövqe sərgiləmək Ermənistanda vəziyyəti daha da qarışdıracaq. O, ölkəsində yeni Qarabağ çəkişməsinin Ermənistana yeni probemlərdən başqa heç nə qazandırmayacağını da vurğulayıb. Ermənistanda "İctimai diplomatiya" mərkəzinin koordinatoru, politoloq Benyamin Matevosyan isə hesab edir ki, Paşinyan bu durumda Levon Ter-Petrosyanın taleyini yaşamaqdan qorxur: "Bu gün Paşinyanın Qarabağda müttəfiqləri yoxdur. Qarabağdakı rejim onunla birlikdə hərəkət etmir. O bu planın həyata keçirilməsində yalnız Levon Ter-Petrosyanın dəstəyinə bel bağlaya bilər". Matevosyanın sözlərinə görə, Ermənistan indi dalana dirənmiş vəziyyətdədir: "Bir tərəfdən Rusiya ilə münasibətlər kəskinləşib, digər tərəfdən ABŞ planının reallaşmamasına görə qəzəblidir, o cümlədən, Azərbaycan danışıqların baş tutmamasına görə hərbi varianta əl ata bilər. Paşinyan bu vəziyyətdən çıxa biləcəkmi? Bu sualın cavabını zaman göstərəcək".

"Daşnaksütyun" Partiyasının rəsmi yayım orqanlarından biri olan "Yerkramas" portalı da bu xüsusda maraqlı məqamalara toxunub. Sayt Paşinyanın "sülh qarşılığında torpaq" formulunu özündə əks etdirən "Bolton planı"nı reallaşdırmağa hazır olduğunu bildirib: "Aydındır ki, proses dönəmində Paşinyan "Bolton planı"nın reallaşdırılması zamanı hakimiyyətini birinci prezident Levon Ter-Petrosyan kimi itirmək təhlükəsi hiss edib. Ona görə də Paşinyan geriyə çəkilərək, danışıqları dalana dirəyib. Baş nazirin problemlə bağlı dəqiq görüntüyə sahib olmaması sayəsində Ermənistan tükdən asılı vəziyyətə düşüb. Bizim Rusiya ilə münasibətlərimiz gərgindir, açıq şəkildə konfliktin hərbi həlli olduğunu bəyan edən məyus olmuş Azərbaycan və özünü aldadılmış hiss edən, planı sona qədər icra edilməyən ABŞ var. Paşinyanın son zamanlar apardığı siyasət böyük optimizm yaratmır. Belə ki, artıq Paşinyanın incə oyun aparıb hakimiyyətdə qalmaqla bərabər dövləti hərbi konfliktə cəlb etməyəcəyi inandırcı görünmür. Elə buna görə də Paşinyan Azərbaycanın istəklərini sonda qəbul etməli olacaq. Bundan istifadə edib Paşinyanı devirməyə cəhdlər göstəriləcək. Dağlıq Qarabağda "ərazilər əvəzinə sülh" variantı Nikol Paşinyanın son çıxış yoludur". Bütün bu qeyd edilənlər bir daha Ermənistanda Qarabağ məsələsi ətrafında kifayət qədər böyük ziddiyyətlər yarandığını göstərir. Hesab edilir ki, bu gedişlə Qarabağ konflikti Ermənistanda yeni daxili qarşıdurmaya rəvac verəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Azərbaycanda qadağan edilən sahələrdə meşə sərvətlərinin tədarükü və yığılması nəticəsində meşə təsərrüfatına vurulmuş zərərə görə ödənişlər müəyyənləşib. Ödənişlər Nazirlər Kabinetinin "Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında" Qərarında dəyişiklik sənədində əksini tapıb.**

# İctimaiyyət meşə məhsullarının yığımına rəsmi məhdudiyyətləri birmənalı qarşılamadı, Prezident cəmiyyətin səsini eşitdi və qərar verdi...



Belə ki, yabanı (cır) meyvələrin (alma, armud, zoğal, alça və s.) hər kiloqramına görə 1 manat, peyvənd meyvələr (alma, armud, zoğal, alça və s.) hər kiloqramına görə 2 manat, itburnunun hər kiloqramına görə 2 manat, çaytikanının hər kiloqramına görə 3 manat, digər dərman bitkilərinin hər kiloqramına görə 2 manat, şabalıd və fındığın hər kiloqramına görə 2 manat, qozun hər kiloqramına görə 2 manat, fıstıq toxumunun hər kiloqramına görə 1.5 manat, palıdın hər kiloqramına görə 1 manat, cökənin hər kiloqramına görə 1.5 manat ödəniş nəzərdə tutulur.

Bundan başqa, qamış, qarğı, meşə döşənəyi və tökülmüş yarpaqların hər kubmetrinə 50 qəpik ödəniş olmalıdır.

Sosial şəbəkələrdə gedən müzakirələrdən aydın olur ki, bu qərar sadə vətəndaşlar tərəfindən birmənalı qarşılanmayıb. Təbii ki, burada dövləti də başa düşmək olar. Çünki son illər ərzində biz meşələrdən necə qazanc məqsədi üçün istifadə edildiyinin şahidi olmuşuq. Məsələn, meşənin böyük bir zolağını hasara alıb özünə istirahət mərkəzi və restoran açanlar da az deyil. Dəfələrlə mediada nadir ağac növlərinin kəsilib baha qiymətə satılması ilə bağlı məlumatlara rast gəlmişik. Bütün bu halların qarşısı ciddi şəkildə alınmalıdır. Ancaq gəlin etiraf edək ki, Nazirlər Kabinetinin son qərarında konkret olaraq yabanı və cır meyvələrin yığılmasına cərimələrdən söhbət gedir və bundan da əziyyət çəkən hansısa işbazlar deyil, kasıb kəndlilər ola bilər.

Hesab edirik ki, beş-üç nəfərin meşədən meyvə dərməsi, onu satıb, özünə qazanc əldə etməsi, məhsul kimi istifadə etməsi problem deyil və olmamalıdır. Əksinə, kasıb, imkansız insanlar meşədən bir neçə kilo meyvə yığıb ailəsini, övladını sevindirirsə və yaxud onu satıb maddi qazanc əldə edirsə, bu, elə dövlətin yükünün azaldılması deməkdir. Burada dəhşətli heç nə yoxdur. Biz şahidi olmuşuq ki, həmin cır və yabanı meyvələri heç dövlət qurumları da yığıb istifadə etmirlər. Onda qəribə bir paradoks yaranmış olur. Dövlət qurumları həmin meyvələri yığmırlar və əvəzində yığmaq istəyən əhaliyə isə qadağa tətbiq olunur. Onda biz hansı nəticəni əldə edəcəyik? Həmin meyvələr meşədə qalıb öz-özünə məhv olacaq. Bundan bizim dövlət olaraq heç bir qazancımız olmayacaq, niyə əhalinin ondan yararlanan aztəminatlı təbəqəsinin narazılığına yol açmalıyıq? Amma həmin meyvələrin yığılmasını elə stimullaşdırmaq olar ki, bundan həm dövlət qazanar, həm də sadə əhali. Məsələn, xüsusi tədarük yerlərini açıb, həmin meyvələrin əhalidən pul müqabilində qəbul olunması kimi ideyanın reallaşması bu problemi kökündən həll etmiş olar. Bu məsələyə mahiyyəti üzrə düz yanaşmaq lazımdır və bu da ondan ibarətdir ki, meyvələrin deyil, meşələrin məhv edilməsinin qarşısı alınmalıdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi mövzunun aktuallığını nəzərə alıb, məsələyə münasibət bildirib. Qeyd edilir ki, meşələrdə yabanı meyvələrin icazəsiz yığılmasından dəyən ziyana görə cərimə tətbiqi əvvəllər də mövcud idi. Cərimələr Nazirlər Kabinetinin 2004-cü il tarixli, 145 nömrəli Qərarı əsasında müəyyən edilmişdi. Hazırda həmin qərara dəyişiklik edilib və cərimələrin məbləği artırılıb.

Onu da qeyd edək ki, cərimələrin məbləğinin artırılması bəzən problemi kökündən həll etmir. Bəzən görürsən ki, bu, işbazlar üçün münbit şərait yaratmış olur. Rəsmi dövlət qurumu deyir ki, belə cərimələr əvvəl də olub. İndi onun məbləğinin artırılması həm də səlahiyyətli qurumlara "pulunu ver, gözümü yumum, get meşədən cır armud yığ" kimi şanslar da açmış olacaq. Hər halda, bizim üçün qəbul edilən qərarlarda vətəndaşların məmnunluğu hər məsələdən ümdə olmalıdır.

İnsanların narahtlığı və birmənalı olmayan müzakirə uzun sürmədi. Xalqın haqq səsi öz yerini tutdu.

Bütün bunları nəzərə alaraq dünən Azərbaycan Prezidenti mühüm qərar verdi. Prezident İlham Əliyev yerlərdən daxil olan müraciətləri nəzərə alaraq, Nazirlər Kabinetinə "Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında" 1993-cü il 27 dekabr tarixli, 636 nömrəli Qərara dəyişikliklərin ləğv olunması barədə göstəriş verib.

Qeyd edək ki, meşə təsərrüfatında meyvələri qanuni əsas olmadan əldə edən şəxs həmin məhsulu geri qaytarmalıdır. Bu mümkün olmadığı, dəymiş zərərin məbləği hüquq pozuntusu baş vermiş tarixdə dövlət tərəfindən tənzimlənən qiymətlərə, dövlət tərəfindən tənzimlənmədiyi hallarda isə sərbəst satış qiymətlərinə uyğun hesablanaraq ödənilir. Nazirlər Kabinetinin qərara etdiyi dəyişikliklər meyvələrin və bitkilərin qanuni əsas olmadan əldə edilməsinə görə ödənişlərin nəzərəçarpacaq dərəcədə artırılmasını nəzərdə tutub.

***Məhəmmədəli QƏRİBLİ***

**Neft bazarında cərəyan edən son proseslər burada hələ də qiymətlərin sabitləşməsinin tam mümkün olmadığını üzə çıxarır. Belə vəziyyətdə hasilatçı ölkələr daha qətiyyətli addımlar atılmasının vaciblyini bəyan edir. Bu xüsusda əsas müzakirələr, artıq məlumat verildyiy kimi, gələn ay OPEK+ sazişinə qoşulan ölkələrin Bakıda baş tutacaq görüşlərində reallaşacaq.**




# Dünya neft oyunçularının gözü Bakıda - martın 18-də nələr olacaq...

Xaırladaq ki, OPEK+ sazişinin icrasına dair Nazirlərin Birgə Monitorinq Komitəsinin növbəti iclası martın 18-də Bakıda keçiriləcək. OPEK+ formatı iştirakçılarının iştirak edəcəyi görüşdə həm də ötən ay qüvvəyə minən yeni OPEK+ sazişinin icrası monitorinq ediləcək. Xatırladaq ki, ötən il dekabrın 7-də Vyanada OPEK və qeyri-OPEK nazirlərinin sayca beşinci müşavirəsində 2018-ci ilin oktyabr ayı səviyyəsinə nisbətən gündəlik hasilatı 1,2 milyon barrel azaltmaq barədə razılıq əldə edilmişdi. Yeni qərara əsasən, Azərbaycan 2019-cu ilin yanvar ayından gündəlik hasilatı təqribən 20 min barrel azaltmaq öhdəliyi götürüb. Ümumiyyətlə, Azərbaycan neftin qiymətinin sabitləşdirilməsi məqsədilə OPEK çərçivəsində irəli sürülən təşəbbüsləri ilk vaxtdan dəstəkləyib. 2016-cı ildən etibarən Azərbaycan OPEK+ formatında neft bazarının balanslaşdırılması prosesinin fəal iştirakçısı olub və üzərinə götürdüyü öhdəliyi tam yerinə yetirib.

Yayılan məlumatlardan isə belə bəlli olur ki, OPEK+ ölkələrinin Bakı görüşü bəzi parametrlər baxımından daha mühüm əhəmiyyət kəsb edə bilər. Məsələ burasındadır ki, Səudiyyə Ərəbistanı və onun Fars körfəzindəki müttəfiqləri OPEK+ dövlətləri ilə artıq rəsmi tərəfdaşlıq müqaviləsinin imzalanmasının tərəfdarıdır. Bu sazişin əsas məqsədi dünya neft bazarında vəziyyətə birgə təsir etmək cəhdi olacaq. "The Wall Street Journal" nəşri OPEK-dəki rəsmi şəxslərə istinadən yazır ki, bu təklif OPEK-lə, Rusiya başda olmaqla, bir neçə ildir əməkdaşlıq edən neft istehsalçısı ölkələr arasında qeyri-formal ittifaq yaratmağa imkan verəcək. O cümlədən, belə tərəfdaşlıq çərçivəsində növbəti 3 il ərzində müntəzəm birgə görüşlərin keçirilməsi nəzərdə tutula bilər.

Eyni zamanda, qəzetin mənbəyinin sözlərinə görə, İran və digər istehsalçı ölkələr Səudiyyə Ərəbistanı və Rusiyanın dominantlıq edəcəyindən çəkinərək daha sıx əməkdaşlığa qarşı çıxır. Məlumatda OPEK-lə Rusiyanın başçılıq etdiyi 10 istehsalçı ölkə arasında razılaşmaların müzakirəsinin ilk olaraq Vyanada keçiriləcəyi qeyd olunur. Daha sonra bu məsələ Bakıda diqqət mərkəzində yer alacaq. O da vurğulanır ki, müzakirələrdən sonra yekun saziş üzrə anlaşma əldə olunacağı gözlənir. "The Wall Street Journal"ın məlumatına görə, neft istehsal edən ölkələr arasında daha sıx əməkdaşlığın hansı yeni formatda olacağı ilə bağlı bir neçə variant var. Amma istənilən halda, OPEK qiymətlərin sabit həddə qalmasında xüsusi maraqlı tərəf kimi çıxış edir. Xüsusən də Venesueladakı olaylar fonunda qiymətlərin necə olacağı xüsusi diqqət mərkəzində yer alır. OPEK-in baş katibi Məhəmməd Barkindo məsələ ilə bağlı qeyd edir: "Neft İxrac Edən Ölkələr Birliyi Venesueladakı vəziyyəti böyük narahatlıqla izləyir". Onun sözlərinə görə, həlelik məlum hadisələrin qlobal neft bazarına necə təsir edəcəyi məlum deyil: "Lakin biz yenicə ən uzun və ən ağır tənəzzüldən çıxmışıq. Ən azı, bazarın və ya sənayenin bu böhran quyusuna yenidən düşməsinə imkan verməyəcəyik. Buna görə də 2019-cu ilin hamımız - OPEK və OPEK+ ölkələri, eyni zamanda istehlakçı ölkələr üçün balanslaşdırılmış bazar olaraq qalmasında maraqlıyıq".

Vəziyyət indiki şəkildə davam edərsə, Birləşmiş Ərəb Əmirliklərinin energetika naziri Suhail Məhəmməd Al Mazroueinin sözlərinə görə, OPEK və müttəfiqləri fövqəladə yığıncaq keçirərək atılacaq addımları müzakirə etməyə hazırdır. Nazir qeyd edib ki, neft hasilatının gündəlik 1,2 milyon barrel azaldılması qiyməti tarazlaşdırmaqda yetərsiz olacağı təqdirdə OPEK və OPEK+ ölkələri fövqəladə görüş keçirməyə, atılacaq addımları müzakirə etməyə hazırdır: "OPEK və qeyri-OPEK ölkələrinin yanvar ayından gündəlik neft istehsalını 1,2 milyon barrel səviyyəsində azaltmaları bazarda tarazlığı təmin etməlidir. Əks təqdirdə hasilat daha çox azala bilər. Bu prosesin 2019-cu ilin ilk aylarında olması gözlənir. Neft istehsalının azaldılmasına dair razılaşmanın müddətinin uzadılması üçün hər hansı problem olmayacaq və istehsalçılar bazarın tələbinə cavab verəcək". Hesab edilir ki, bütün bunlar neft bazarında qiymətlərin yüksəlməsinə təsir edəcək. Əks təqdirdə OPEK+ ölkələri hasilatı daha çox azalda bilər. Hər halda, proseslərin gedişinə OPEK+ ölkələrinin Bakı görüşündə daha qəti şəkildə aydınlıq gətiriləcək.

***Tahir TAĞIYEV***

# Şamaxı-İsmayıllı zəlzələsi icra strukturlarının hazırlıq səviyyəsini bir daha sınağa çəkdi

**Fevralın 5-də gecə saatlarında Şamaxı rayonunda baş verən zəlzələ hər birimizə böyük həyəcan yaşatdı. Zəlzələ nəticəsində yaşayış evlərinə, ictimi obyektlərə, eləcə də digər tikililərə zərər dəyib, əhali arasında yaralananlar, şok keçirənlər olub. Baş verən hadisə Prezident İlham Əliyev tərəfindən nəzarətə götürülüb.**

*"Yaxşı haldır ki, əvvəlki dövrlərdən fərqli olaraq, hazırda dövlət qurumları fövqəladə hadisələrə, təbii fəlakətlərə daha tez, çevik reaksiya verməyi bacarırlar"*

***Şakir Ağayev:*** *"Şamaxıda baş verən zəlzələnin vurduğu zərərin aradan qaldırılmasında Prezidentin göstərişi ilə operativlik təmin olunub"*



Prezident təbii fəlakət nəticəsində yaranan fəsadların operativ şəkildə aradan qaldırılması üçün müvafiq qurumlara göstəriş verib.

Qeyd edək ki, Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişli, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov nazirliyin digər rəhbər şəxsləri ilə birgə fevralın 6-da baş vermiş zəlzələnin nəticələri ilə yaxından tanış olmaq məqsədilə həmin əraziyə gediblər.

Onu da qeyd edək baş verən hadisə ilə bağlı artıq fövqəladə komissiya yaradılıb. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondunun könüllüləri də bu işdə yaxından iştirak edəcəklər. O da bildirilib ki, qəzalı vəziyyətdə olan evlərin sakinləri başqa evlərdə müvəqqəti yerləşdiriləcəklər. Daha çox dağıntı rayonun Qəleybuğurt, Qızmeydan və Nağaraxana kəndlərində qeydə alınıb.

Məlum olduğu kimi, hadisə ilə bağlı bütün aidiyyəti qurumlar gücləndirilmiş iş rejiminə keçib. Zəlzələdən zərər çəkən insanlara tibbi yardımlar edilib və Səhiyyə Nazirliyi tərəfindən kəndlərdə səyyar tibb məntəqələri qurulub. Dağıntılar zamanı xəsarət alanların sayının artdığı və onların əksəriyyətinə ambulator yardım göstərildiyi bildirilir. Şamaxı Rayon Mərkəzi Xəstəxanası da gücləndirilmiş iş rejiminə keçib.

Şamaxıda baş verən zəlzələnin fəsadlarının aradan qaldırılması üçün Şamaxı Rayon İcra Hakimiyyətinin, eləcə də müfaviq dövlət qurumlarının hadisəyə operativ reaksiya verməsi qənaətbəxş sayıla bilərmi?

**"Novaya vremya" qəzetinin baş redaktoru Şakir Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, dövlət qurumları Prezidentin bu barədə göstərişlərini zamanında icra edə bildilər.** O qeyd etdi ki, əlaqədar qurumlar Şamaxıda baş verən zəlzələyə operativ reaksiya verdilər. "Baş verən hadisə zamanı mətbuat tərəfindən yayılan informasiyalar da təsdiqləyir ki, əlaqədar dövlət qurumları hadisəyə olduqca operativ reaksiya verdilər. Yəni onlar çeviklik göstərərək dərhal hadisə yerində tədbirlər həyata keçirməyə başladılar. İstər Səhiyyə Nazirliyi, istər Fövqəladə Hallar Nazirliyi, eləcə də digər dövlət qurumları Prezident İlham Əliyevin tapşırığına əsasən, baş verən hadisənin aradan qaldırılması üçün çevik fəaliyyət göstərirlər. Bu məsələ ilə bağlı Təhsil Nazirliyi də, Ekologiya və Təbii Sərvətlər Nazirliyi də operativ informasiyalar yaydılar. Sözsüz ki, bütün bunlar Prezidentin şəxsi nəzarətindədir. Çox arzu edərdik ki, evlərə, eləcə də insanlara dəyən zərər tezliklə aradan qaldırılsın, onların üzləşdikləri çətinliklər belə operativ surətdə öz həllini tapsın. Şamaxıda baş verən zəlzələnin vurduğu zərərin aradan qaldırılmasında Prezidentin göstərişi ilə operativlik təmin olunub. Yaxşı haldır ki, əvvəlki dövrlərdən fərqli olaraq, hazırda dövlət qurumları fövqəladə hadisələrə, təbii fəlakətlərə daha tez, çevik reaksiya verməyi bacarırlar. Yəni artıq biz bu cür hadisələrə tez reaksiya verməyə hazırıq" - deyə Ş.Ağayev bildirdi.

***İradə SARIYEVA***

# Zəlzələdən həyəcanlanan 1 nəfərin dili tutulub, 1 nəfərin isə beyninə qan sızıb

*Şamaxıda zəlzələdən sonra müraciət edənlərin əksəriyyəti şəkər və ürək xəstələri olub*

**Şamaxı Mərkəzi Rayon Xəstəxanası zəlzələ ilə bağlı gücləndirilmiş rejimdə çalışıb.**

Səhiyyə Nazirliyindən "Trend"ə verilən məlumata görə, hadisə ilə əlaqədar 6 təcili tibbi yardım briqadası işləyib: "Təcili yardıma 30 müraciət edilib, 3 nəfər travmatologiya şöbəsinə çatdırılıb. Bir nəfərə qolun sınığı, digər iki nəfərə ayaqlarının əzilməsi diaqnozu qoyulub. Xəsarət alanlara travmatologiya şöbəsində lazımi yardım göstərilib".

Məlumatda qeyd edilir ki, digər çağırışlar həyəcandan təzyiqi qalxanlarla əlaqəli olub: "Onlara xəstəxananın terapiya şöbəsində tibbi yardım göstərilib. Bir nəfər gəncin həyəcandan dili tutulub. O da yardım göstərildikdən sonra normallaşıb və evinə buraxılıb. Daha bir nəfərin isə həyəcandan beyninə qan sızıb. Həmin şəxsin 58 yaşı var, reanimasiya şöbəsində müalicə alır. Vəziyyəti ağır qiymətləndirilir".



Xatırladaq ki, dünəndən indiyədək 5 zəlzələ qeydə alınıb. İlkin zəlzələ yerli vaxtla 23.19-da Pirqulu stansiyasından 7 km cənubda Ağsu ərazisində 4,4 bal gücündə qeydə alınıb. Yeraltı təkanların ocağı 10 km dərinlikdə yerləşib. Həmin zəlzələ episentrdə 5 bala yaxın, ətraf rayonlarda 4,3 bala qədər hiss olunub. Sonuncu zəlzələ isə saat 04.25-də Pirqulu stansiyasından 9 km cənub-qərbdə İsmayıllı ərazisində zəlzələ qeydə alınıb. Həmin zəlzələlərin 3-ü hiss edilən olub. Sonuncu iki zəlzələ isə hiss edilməyib.

Zəlzələ nəticəsində Şamaxı Rayon Mərkəzi Xəstəxanasına 30 nəfərə yaxın xəstə müraciət edib. Bu barədə "Trend"ə Şamaxı Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Səməd Fətəliyev məlumat verib.

Baş həkim bildirib ki, daxil olan xəstələrdən 3 nəfər travma, digərləri isə şəkərli diabet və ürək xəstələri olub: "Xəstələrə yardım göstərilib, onlar evə buraxılıb. Cəmi 1 qadın şəkərli diabet xəstəsi olduğu üçün qəbul edilmişdi, həmin qadının da səhhəti bu gün normallaşdığı üçün evə buraxıldı. Hazırda xəstələr ambulator nəzarətdədirlər, vəziyyətlərində mənfi dəyişiklik yoxdur".

Xatırladaq ki, dünəndən indiyədək 5 zəlzələ qeydə alınıb. İlkin zəlzələ yerli vaxtla 23.19-da Pirqulu stansiyasından 7 km cənubda Ağsu ərazisində 4,4 bal gücündə qeydə alınıb. Yeraltı təkanların ocağı 10 km dərinlikdə yerləşib. Həmin zəlzələ episentrdə 5 bala yaxın, ətraf rayonlarda 4,3 bala qədər hiss olunub. Sonuncu zəlzələ isə saat 04.25-də Pirqulu stansiyasından 9 km cənub-qərbdə İsmayıllı ərazisində zəlzələ qeydə alınıb. Həmin zəlzələlərin 3-ü hiss edilən olub. Sonuncu iki zəlzələ isə hiss edilməyib.

## Təhsil Nazirliyi zəlzələ baş verən ərazilərdə dərslərin davam etməsi üçün bütün prosesləri nəzarətdə saxlayır

**Məktəblərdə davamiyyət nisbətən zəif olsa da, hazırda dərslər davam edir. Təhsil Nazirliyindən "Trend"ə verilən məlumata görə, fevralın 5-də baş verən zəlzələ nəticəsində İsmayıllı rayonunda 1, Şamaxıda isə 4 məktəbdə çatlar əmələ gəlib.**

Agentliyin Şamaxı Rayon Təhsil Şöbəsinin müdiri Eyvaz Eminalıyevdən aldığı xəbərə görə, zəlzələ nəticəsində Şamaxı şəhər 2 nömrəli tam orta məktəbin 1-ci korpusunun 2-ci və 3-cü mərtəbələri arasındakı panel tavanının suvağı yerə tökülüb. İki korpusdan ibarət məktəbin şagirdləri isə 2-ci tədris korpusuna yerləşdirilib. Eləcə də Şamaxının bir çox köhnə məktəb binalarında xırda çatlar əmələ gəlib. Hazırda Fövqəladə Hallar Nazirliyi, Təhsil Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları zəlzələdən ziyan çəkən məktəblərə baxış keçirirlər. Xatırladaq ki, dünəndən indiyədək 5 zəlzələ qeydə alınıb. İlkin zəlzələ yerli vaxtla 23.19-da Pirqulu stansiyasından 7 km cənubda Ağsu ərazisində 4,4 bal gücündə qeydə alınıb. Yeraltı təkanların ocağı 10 km dərinlikdə yerləşib. Həmin zəlzələ episentrdə 5 bala yaxın, ətraf rayonlarda 4,3 bala qədər hiss olunub. Sonuncu zəlzələ isə saat 04.25-də Pirqulu stansiyasından 9 km cənub-qərbdə İsmayıllı ərazisində zəlzələ qeydə alınıb. Həmin zəlzələlərin 3-ü hiss edilən olub. Sonuncu iki zəlzələ isə hiss edilməyib.

## Zəlzələ zonasının suyu da kəsilmədi...

**Şamaxıda baş verən zəlzələ nəticəsində əraziyə içməli suyun verilməsində problem yoxdur. Bu barədə "Trend"ə açıqlamasında "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı deyib.**

Onun sözlərinə görə, qurum əməkdaşları əraziyə baxış keçirib: "Rayon ərazisindəki anbarlarda, hidrotexniki qurğularda vəziyyət yaxşıdır. Şəbəkədə hər şey qaydasındadır".

Xatırladaq ki, dünəndən indiyədək 5 zəlzələ qeydə alınıb. İlkin zəlzələ yerli vaxtla 23.19-da Pirqulu stansiyasından 7 km cənubda Ağsu ərazisində 4,4 bal gücündə qeydə alınıb. Yeraltı təkanların ocağı 10 km dərinlikdə yerləşib. Həmin zəlzələ episentrdə 5 bala yaxın, ətraf rayonlarda 4,3 bala qədər hiss olunub. Sonuncu zəlzələ isə saat 04.25-də Pirqulu stansiyasından 9 km cənub-qərbdə İsmayıllı ərazisində zəlzələ qeydə alınıb. Həmin zəlzələlərin 3-ü hiss edilən olub. Sonuncu iki zəlzələ isə hiss edilməyib.



# "Qaçqın... Komun" yeni bahalı xidməti avtomobili barədə sosial şəbəkə müzakirələri və həqiqət...

## *180 min manatlıq xidməti BMW alındı, mətbuat xidməti isə mətbuata "ağıl verdi"...*

**Bu günlərdə mətbuatda bəzi büdcə təşkilatlarına dövlət satınalmaları xəttilə alınan bahalı avtomobillərin siyahısı dərc edilmişdi. Siyahıda adı və əhəmiyyəti geniş ictimaiyyət üçün o qədər də böyük məna kəsb etməyən qurumlar var. Məsələn, Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi üçün alınan iki xidməti avtomobilə 106 min 200 və 72 min 700 manat olmaqla, cəmi 200 min manata yaxın pul ödənilib.**

Yaxud Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsis etdiyi "Təhlükəli Tullantılar" MMC-yə 140 min manat qiyməti olan 1 ədəd "Toyota Land Kruiser" avtomobili alınıb.

Böyük ehtimalla, həmin avtomobillər sözügedən qurumlara rəhbərlik edənlərin xidməti maşınlarıdır. Hansı ki, hələ 2016-cı ilin yanvar ayında Azərbaycan Prezidenti məmurlara Naxçıvanın Avtomobil Zavodunda (NAZ) istehsal edilmiş avtomobilləri tövsiyə etmişdi. Bir tərəfdən ölkə rəhbərliyi səviyyəsində idarəetmə aparatının təkmilləşdirilməsi, xərclərin azaldılması tapşırığı, digər tərəfdən də əhalinin vergiləri və neft gəlirləri hesabına formalaşan büdcəyə münasibətdə bu israfçılıq və bərbəzək, komfort, lüks həyat yarışı doğrudan da paradoks yaratmış olur.

Təəssüf ki, bu kontekstdə Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin də adına rast gəlirik. Təqdim edilən rəsmi siyahıdan görünür ki, komitəyə ötən il 179 min 444 manat qiymətində bir ədəd "BMW 740 Lİ" markalı xidməti avtomobil alınıb. Xatırladaq ki, ötən il "Qaçqınkom"un rəhbərliyi dəyişdirildi və sədr vəzifəsinə deputat Rövşən Rzayev gətirildi. Bu təyinatdan əvvəl uzun illər həmin quruma rəhbərliyi Əli Həsənov edib. Sözügedən qurumdan biz islahat gözlədiyimiz halda, belə bir maraqlı mənzərə ilə üzləşirik. Qeyd edək ki, "Qaçqınkom"un yeni rəhbərliyi tərəfindən yol verilən bu fakta sadə əhalinin münasibəti birmənalı olmayıb. Sosial şəbəkələrdə məcburi köçkünlərin problemi ilə məşğul olmalı olan qurumun bu cür addımlarına birmənalı olaraq mənfi reaksiyalar verilib. Sözügedən dövlət qurumu mediaya verdiyi açıqlamada rəhbərliyə yeni avtomobilin alındığı ilə bağlı yayılan xəbərləri təkzib etməyib. Bildirilən münasibətdən belə aydın olub ki, qurumun köhnə rəhbəri olan Əli Həsənov vəzifədən gedəndə özü ilə xidməti avtomobilini də apardığı üçün, yeni rəhbərlik özünə xidməti avtomobil almağa məcbur olub. Çox maraqlı suallar meydana çıxır. Niyə vəzifəsi dəyişilən məmur özü ilə xidməti avtomobilini də aparır? Hətta bu hərəkət baş veribsə, yeni rəhbərlik hansı səbəbdən məhz dəyəri çox baha olan yeni avtomobildə gəzməyə üstünlük verib?

Bütün bu suallara cavab almaq üçün Qaçqın və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsinin İctimaiyyət və mətbuat xidməti departamentinin direktoru İbrahim Mirzəyevlə əlaqə saxladıq. **İbrahim müəllim sualımızı eşidən kimi bizə maraqlı "məsləhət" verdi:** "Mən bugünkü Azərbaycan KİV-lərindən bilirsiniz hansı yanaşmanı gözləyirəm? Bir var axara düşüb getmək, bir də var taleyüklü məsələlərlə maraqlanmaq. Bu gün Azərbaycanın taleyüklü məsələsi məcburi köçkünlərlə bağlıdır. Mənim təmsil olunduğum komitənin adından da görünür ki, biz həmin təbəqənin problemi ilə dərindən məşğul olan qurumuq. Bu gün və sabah biz yeni istifadəyə verilən şəhərciklərə məcburi köçkün ailələrini yerləşdirəcəyik. Niyə jurnalistlər bu cür işləri işıqlandırmaq istəmirlər? Yalnız sensasiya dalınca qaçırlar? Bu, 25 ildir ki, olduqca acınacaqlı vəziyyətdə yaşayan ailələrin taleyidir. İndi onlara gözəl mənzillər verilir. Gəlib, bu hadisələrin, həmin ailələrin necə sevindiyinin şahidi olmaq lazımdır. Olmaz ki, belə mövzulardan yazasınız?"

İbrahim müəllimin nəzərinə çatdırdıq ki, hansı mövzudan yazmaqla bağlı seçimi bizim redaksiyanın özü müəyyən edir. Dağlıq Qarabağ problemi, onun siyasi həlli perspektivləri və məcburi köçkünlərin problemləri, onlara göstərilən dövlət qayğısı ilə bağlı mövzuda isə əminliyi ilə deyə bilərik ki, bizim qəzetdən çox yazan KİV bəlkə də yoxdur. Onu da əlavə edək ki, "Bakı-Xəbər"in son bir ildəki saylarını ötəri də olsa izləmək kifayətdir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsinin yeni rəhbəri Rövşən Rzayevin fəaliyyətinə, keçirdiyi islahatlara nə qədər yer ayırmışıq. Komitədən gələn bir press-reliz diqqətdən kənarda qalmayıb. Rövşən Rzayevin həftəlik qəbulları, əcnəbi diplomatlarla görüşləri, qaçqınlarla ünsiyyətləri barədə saysız yazılar dərc etmişik, qəzetin daimi işlək saytında vermişik. Bir sözlə, bizi subyektivlikdə suçlamaq insafsızlıqdır. Biz yaxşını da görürük, neqativi də, həm də neqativlərə dostcasına məhrəm və islahedici xoş niyyətlə yanaşmaq bizim iş üsulumuzdur.

Konkret sualımıza gəldikdə isə, bu da Azərbaycan üçün taleyüklü əhəmiyyət kəsb edir. Ola bilər ki, bu məsələyə yanaşma tərzində bizimlə İbrahim müəllimin baxışları haçalanır, buna da təbii yanaşırıq. Ancaq dövlət qurumlarında israfın, idarəetmənin şişirdilməsinin qarşısının alınması bizim yox, ölkə başçısının qoyduğu tələbdir. Bu baxımdan da məhz məcburi köçkünlərin adı ilə bağlı olan bir qurumda bir xidməti avtomobilə fantastk məbləğdə pulun xərclənməsinin səbəbini aydınlaşdırmağı biz özümüzün şərəfli jurnalist borcu sayırıq və burada qanunsuz nəsə görmürük. Sonda İbrahim Mirzəyev bizə bildirdi ki, bu məsələ ilə bağlı hər hansı əlavə açıqlama verməyə zərurət görmür. Bundan əvvəl açıqlanan mövqelərinin üstündə dayandıqları üçün, həmin açıqlamanı qurumun rəsmi mövqeyi olaraq qəbul edə bilərik.



Dövlət Komitəsindən verilən məlumatda bildirilir ki, ötən il dövlət başçısının apardığı struktur islahatları və mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlərin təyinatı çərçivəsində Baş nazirin müavininin, eyni zamanda, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədrinin səlahiyyətlərini yerinə yetirməsinə xitam verilib, Dövlət Komitəsinə yeni sədr təyin edilib: "Bu zaman xidməti avtomobilin Baş nazirin müavininin istifadəsində qalması və yeni təyin edilmiş sədrin xidməti avtomobillə təmin olunmasına zərurət yaranması nəzərə alınaraq, yeni avtonəqliyyat vasitəsinin alınması üçün Maliyyə Nazirliyi tərəfindən mövcud qaydada dövlət vəsaiti ayrılıb. Xidməti avtomobilin alınması mövcud qanunvericilik əsasında həyata keçirilib. Xidməti avtomobilin markası seçilərkən onun respublikamızın mərkəzi icra hakimiyyəti orqanlarının istifadəsində olan avtonəqliyyat vasitələrinin markasına uyğunluğu əsas götürülüb".

Bu rəsmi açıqlamadan hətta belə nəticəni çıxarmaq olar ki, sanki həmin avtomobil quruma "məcburi qaydada" verilib. Hər halda, qənaət məqsədilə ondan imtina edib, daha ucuz avtomobillə əvəzlənməsini tələb etmək də olardı. Bəzi dövlət qurumlarında artıq bu təcrübədən yararlanırlar. Xüsusilə də yerli istehsal olan avtomobillərdən məmurların xidməti maşın kimi istifadə etməsi halları çoxalıb. Hər halda, yaxşı nümunə olduğu üçün, yararlanmaq lazımdır.

Qeyd edək ki, Baş nazirin müavini Ə.Həsənovun köməkçisi Ramin Talıblı da yayılmış məlumata aydınlıq gətirib. Onun dediyinə görə, Ə.Həsənov komitə sədri olarkən Nazirlər Kabinetinə məxsus xidməti avtomobildən istifadə edib: "10-AA-203 dövlət nömrə nişanlı, 2012-ci il buraxılışlı, BMV markalı və hazırda Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənovun xidməti istifadəsində olan nəqliyyat vasitəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinə məxsusdur.

Əli Həsənov, həmçinin, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsini icra edən dönəmdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə sözügedən nəqliyyat vasitəsi müvəqqəti olaraq Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə xidməti istifadə üçün verilmiş, sonradan isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə komitənin balansından çıxarılaraq Nazirlər Kabinetinə geri qaytarılıb".

Nəticəni oxucular özləri çıxarsın...

***Məhəmmədəli QƏRİBLİ***

**Bakıda sovet dövründə tikilən binalardakı liftlər dünya standartlarından çox geridə qalır. Liftlərin həm işləkliyi, həm də vizual görkəmi xoşagələn deyil. Əksər binalardakı liftlərdə natəmizlik hökm sürür, düymələri siqaretlə yandırıblar, mərtəbə işarələri isə yoxdur. Əgər liftdə kimsə qalarsa, ümid qalır yalnız pilləkənlə enib-qalxan adamların içəridən gələn haraylara göstərdiyi reaksiyaya.**

# Sınıq-salxaq liftlərin və tavanından su tökülən çoxmərtəbəli binaların bəxti açıldı - Prezidentin sayəsində...

### *Mayis Əliyev: "Liftlərdə yaşanan xoşagəlməz halların qarşısının alınması üçün bu sahəyə dövlət tərəfindən diqqət göstərilməsi sevindiricidir"*

Bu hal tək paytaxt ərazisində deyil, bölgələrdə də müşahidə olunur.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycanın 12 şəhər və rayonunda 237 çoxmənzilli binanın lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 15 yanvar tarixli, 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri)" üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.64-cü bəndində göstərilmiş məbləğin 40 milyon manatı bu sərəncama əlavə edilmiş siyahıya uyğun olaraq şəhər, rayon icra hakimiyyətlərinə ayrılır.

Lift probleminin həlli ilə yanaşı, Prezident binaların dam örtüyünün yenilənməsinə də diqqət göstərib. Məlumdur ki, əksər binaların dam örtüyü yararsız vəziyyətdədir. Güclü külək olan kimi həmin dam örtüyünün parçaları ətrafa tökülür. Nəticədə xoşagəlməz hal yaşanır. Bəzi hallarda binadan tökülən dam örtüyü parçaları həmin ərazidə dayanan avtomobilləri zədələyir.




*"Bəzi binaların dam örtüyü yararsız vəziyyətə düşdüyü üçün, külək əsəndə ətrafa səpələnir"*

Bu kimi problemlərin həll olunması üçün paytaxtda və regionlarda çoxmərtəbəli binaların dam örtükləri yenilənəcək. Dövlət başçısının sərəncamına əsasən, Gəncə, Sumqayıt, Şəki, Şirvan və Qazaxda, ümumilikdə, 379 binanın dam örtüyü təmir olunacaq.

**Binaların kommunal probleminin həll olunmasına münasibət bildirən sosial sahə üzrə ekspert Mayis Əliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün yeni inşa olunan binalardan savayı, köhnə binaların lifti bərbad vəziyyətdədir:** "Bunu istənilən şəxs müşahidə edib. Liftlərin təhlükəsizliyi və keyfiyyətinin müasir tələblərə cavab verməməsi əhalinin haqlı narazılığına səbəb olur. Bəzən liftlərdə qalan insanların köməyinə bina sakinləri çatır. Həmçinin, liftlərdə antisanitariya halları mövcuddur. Əksər köhnə binaların liftləri müasir standartlara cavab verməməklə yanaşı, xoşagələn vəziyyətdə deyil. Liftə daxil olan şəxslər orada sərbəst şəkildə siqaret çəkir. Bu kimi hallar liftlərdə yaşanır. Ancaq çoxmərtəbəli binalarda vəziyyət əksinədir. Lift müasir tələblərə cavab verir".

Ekspertin sözlərinə görə, liftlərdə yaşanan xoşagəlməz halların qarşısının alınması üçün bu sahəyə dövlət tərəfindən diqqət göstərildi. Prezidentin sərəncamı ilə Azərbaycanın 12 şəhər və rayonunda 237 çoxmənzilli binanın lift təsərrüfatının maddi-texniki bazası möhkəmləndiriləcək. Məlum sərəncamdan sonra bu sahədə yaşanan problemlər öz həllini tapacaq".

Həmsöhbətimiz onu da əlavə etdi ki, binalarda yaşanan problemlərdən biri də dam örtüyü ilə bağlıdır. Bu problem əsasən güclü külək əsən vaxtı özünü göstərir. Bəzi binaların dam örtüyü yararsız vəziyyətə düşdüyü üçün, külək əsəndə ətrafa səpələnir. Qırılmış dam örtüyü avtomobillərə, həmin ərazidən keçən insanlara zərər yetirir. Bu səbəbdən çoxmənzilli binaların dam örtüyü probleminin həll olunması sevindiricidir.

*Günel CƏLİLOVA*



## MDB ölkələri arasında kapitallaşmaya görə ən yüksək səviyyə Azərbaycana nə verir...

### *Könül Nuriyeva: "Bank sektoruna yatırılan investisiyaların həcminin artması da kapitallaşmanın həcminə təsir göstərir"*

### *"Son zamanlar bank sektorunda maliyyə vasitəçiliyinin artması müşahidə olunur"*

**"Moodys" Azərbaycan bank sektoru ilə bağlı açıqlama yayıb. Agentlik bildirir ki, Azərbaycan bank sektoru MDB ölkələri arasında ən yüksək kapitallaşma səviyyəsinə malikdir.**

"Moodys Investors Service" beynəlxalq reytinq agentliyinin yeni hesabatında həmin nailiyyət başlıca olaraq ölkənin ən iri bankı olan Azərbaycan Beynəlxalq Bankına (İnternational Bank of Azerbaijan - İBA) dövlət tərəfindən göstərilən maliyyə yardımları ilə izah edilir.

Bundan əlavə, MDB ölkələrində iqtisadi artım sürətinin yenidən artması ilə bütün region boyu əməliyyat mühitinin də yaxşılaşdığı göstərilir: "MDB ölkələrinin iqtisadiyyatlarının 2017-2018-ci illərdə bərpa olunmasından sonra yaxın iki il ərzində iqtisadi artım göstərəcəklərini gözləyirik. MDB ölkələrinin bank sektoruna dair proqnozumuz müsbətdir".

**Azərbaycan bank sektorunun MDB ölkələri arasında ən yüksək kapitallaşma səviyyəsinə yüksəlməsi ilə bağlı fikir bildirən iqtsadçı-ekspert Könül Nuriyeva "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bank sektorunun kapitallaşması məsələsi bankların özündən asılıdır:** "Ötən illərə nisbətən son zamanlar bank sektorunda kapitallaşma artıb. Bunun da səbəbi bank sektoruna güvənlə bağlıdır. Güvənin artması isə dayanıqlı infrastruktura söykənir. Bank sektoruna yatırılan investisiyaların həcminin artması da kapitallaşmanın həcminə təsir göstərir. MDB ölkələri ilə müqayisədə Azərbaycan bank sektorunun kapitallaşma səviyyəsi üzrə ön sıralarda olması sevindiricidir. Bunun da səbəbi həmin ölkələrin bank sektorunda kapitalın yetərincə olmamasıdır".

Xanım iqtisadçı bildirdi ki, Azərbaycan bankları banka səhmdar cəlb etməklə kapitalın həcmini artırırlar.

K.Nuriyeva onu da vurğuladı ki, son zamanlar bank sektorunda maliyyə vasitəçiliyinin artması müşahidə olunur. Təbii ki, bu, kapitallaşmanın həcminə təsir göstərir.

*Günel CƏLİLOVA*

**Açıqlanan statistik rəqəmlərə əsasən, 2018-ci ilin dekabr ayında əhali dollar alışını kəskin artırıb. Bu, özünü dekabr ayında banklara qoyulan depozitlərin həcmində də göstərib. Depozitlər dekabrda 301,9 mln. manat artaraq, 8 mlrd. 375,4 mln. manata qalxıb. Depozit artımında 119,8 mln. milli valyutanın, 182,1 mln. manat xarici valyutanın payına düşüb.**

# Banklarda xarici valyuta ilə əmanətlər artır, manata inamın azalması, ya...

### *Fuad İbrahimli: "Banklarda xarici valyuta ilə əmanətlərin həcminin artması müvəqqətidir"*

Dekabrın sonunda cəmi fiziki şəxslərin əmanətlərinin 37,5%-i milli valyutada, 62,5%-i xarici valyutada olub.

Ümumilikdə, 2018-ci ildə əhalinin bank əmanətləri 10,8% - 8 mlrd. 375,4 mln. manatadək artıb. Əhalinin xarici valyutada əmanətləri 4,1% - 5 mlrd. 233,2 mln. manata çatıb və bütün əmanətlərin 62,5%-ni tutur.

Qeyd edək ki, 2019-cu il yanvarın 1-nə banklarda əmanət və depozitlərin həcmi 21 mlrd. 870,4 mln. manat təşkil edir, bu da 2017-ci ilin sonuna olan göstəricidən 6,2% çoxdur.

Ekspertlər qeyd edirlər ki, son zamanlar insanlr arasında yaranan devalvasiya xofu dollara olan tələbatı artırıb. Bu səbəbdən də dollarla yerləşdirilən əmanətlərin həcmi artıb.



**Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekpsert Fuad İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son günlər dollara olan tələbat artıb.** Bununda səbəbi devalvasiyanın olacağı ilə bağlı yayılan şayiələrdir. İnsanlar devalvasiya xofundan ehtiyat etdiyi üçün, xarici valyuta ilə əmanət yatırmağa üstünlük verirlər: "Bu səbəbdən insanlar dövriyyəsində olan vəsaiti dollara çevirir. Ancaq insanlar unudurlar ki, hazırkı şəraitdə ölkədə devalvasiyanın baş verməsi mümkün deyil. Nəzərə almaq lazımdır ki, hazırda ölkə iqtisadiyyatında belə bir risq yoxdur. Tam əminliklə bildirim ki, hazırda manatı heç bir təzyiq gözləmir".

*"İnsanlar devalvasiya xofundan ehtiyat etdiyi üçün, xarici valyuta ilə əmanət yatırmağa üstünlük verirlər"*

Həmsöhbətimizin sözlərinə görə, devalvasiyanın olacağı ehtimalını təəssüf ki, bəzi iqtisadçılar yayır. İnsanlar təşvişə düşərək əllərində olan vəsaiti xarici valyutaya çevirir və onu əmanət şəklində depozit kimi yatırırlar.

İqtisadçı onu da əlavə etdi ki, devalvasiya ehtimalını insanlar unutmalıdırlar. Bunun üçün tək yazılı media deyil, eyni zamanda, televiziya ekranlarında da ölkə iqtisadiyyatının hazırkı vəziyyəti ilə bağlı ictimaiyyətə məlumat verilməlidir.

Ekspert hesab edir ki, banklarda xarici valyuta ilə əmanətlərin həcminin artması müvəqqətidir: "Xatırladım ki, son zamanlar əmanətlərin yerləşdirilməsində manat üstünlük təşkil edir. Yaxın zamanlarda manatla yerləşdirilən əmanətlərin həcmi yenidən arta bilər".

*Günel CƏLİLOVA*

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, Əməkdar elm xadimi, Dövlət Mükafatı Laureatı, Milli Məclisin deputatı, görkəmli alim, akademik Yaqub Mahmudov haqqında söz söyləmək böyük məsuliyyət tələb edir.

# Akademik Yaqub Mahmudov haqqında bir neçə söz...



**Vasif Qafarov,**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Xalq Cümhuriyyəti tarixi" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent*

Ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməklə yanaşı, ömrünü Azərbaycan təhsilinə və elminə həsr edən Yaqub müəllim obyektivliyi, qərəzsizliyi, prinsipiallığı və amalına görə özünün dəst-xətti ilə seçilən və məhz bu xarakterlərinə tələbələrin, magistrlərin, doktorantların, tarixçilərin və onu tanıyan hər bir şəxsin yaddaşında dərin izlər buraxmış böyük bir şəxsiyyətdir. Yaqub müəllim həm də Tarix elmində özünün məktəbini yaratmış bir alimdir. Yaqub müəllim onlarla fəlsəfə doktoru və elmlər doktoru yetişdirmişdir. Bu gün Tarix elmimizin yükünü öz çiyinlərində daşıyan alimlərin böyük əksəriyyəti məhz Yaqub müəllimin yaratdığı məktəbin münayəndələridir.

Əsərlərini hələ orta məktəb illərində oxusam da, mənim Yaqub müəllimlə ilk tanışlığım 20 il bundan əvvələ - 1999-cu ilə təsadüf edir. Mən 1999-cu ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olunmuşdum. Bu zaman Tarix fakültəsinin dekanı Yaqub Mahmudov idi. Tələbəlik illərindən Yaqub müəllimlə bağlı bir çox xatirələrim yaddaşımda qalmışdır. Onlardan biri haqqında bəhs etmək istəyirəm. Belə ki, mən üçüncü kursda oxuyan zaman Şərqi Avropa tarixindən imtahan verəndə müəllim mənə "yaxşı" yazırdı, amma mən "əla" qiyməti istədiyimdən bununla razılaşmadım, nəticə etibarilə müəllimlə mənə "qeyri-kafi" yazması və kəsirdən sonra təkrar imtahan verəcəyim haqda razılaşdıq. Fikrim də o idi ki, təkrar imtahan verəndə mütləq "əla" qiyməti ala biləcəyəm. Nə isə, bu şəkildə müəllimlə razılaşdım və imtahan otağını tərk elədim. İmtahan bitdikdən sonra müəllim imtahan vərəqi ilə dekanın yanına girdikdə, Yaqub müəllim imtahan nəticələri ilə tanış olur. Bu zaman mənim qiymətlərimin hamısı "əla" olduğu halda bu imtahandan niyə "qeyri-kafi" almağımla maraqlanır. Müəllim də bildirir ki, Vasif Qafarova "yaxşı" qiyməti yazırdıq, lakin o, "əla" qiyməti istəyirdi deyə bununla razılaşmadı və kəsirdən sonra yenidən imtahan verməsi üçün bizə təkidlə özünə "qeyri-kafi" yazdırdı. Yaqub müəllim "belə tələbəyə "əla" qiyməti halaldır" deyib, dərhal imtahan vərəqinin dəyişdirilməsi və mənə "əla" qiymətinin yazılması haqqında göstəriş vermişdi. Bu hadisədən sonra Yaqub müəllim məni gördüyü halda bu barədə mənə heç nə deməmişdi. Bütün bunlardan xəbərsiz olan mən tətildən qayıtdıqdan sonra kəsir imtahanlarının verilməsi vaxtı dekanlıqda adıma göndərişin olmadığını görüb bunun səbəbini soruşduqda, mənə "sənin kəsirin yoxdur" dedilər. Necə olur, mən Şərqi Avropa tarixindən "qeyri-kafi" almışam dedim. Mənə imtahandan sonra Yaqub müəllim sənin niyə "qeyri-kafi" aldığını bilib və dərhal həmin imtahan vərəqində sənin qiymətini "əla" yazdırıb deyib, bütün bu sadaladıqlarımı nəql etdilər. Bu, Yaqub müəllimin mənə böyük dəstəyi və jesti idi. Bundan başqa, Yaqub müəllim özü bizdən Orta əsrlər tarixi fənnindən imtahan götürəndə mənim seminar qiymətlərimi nəzərə alıb məni imtahandan azad edib, "əla" qiyməti yazmışdı. Bu şəkildə Yaqub müəllim hər zaman oxuyan tələbələrin yanında olur, onlara hər cür dəstək olur və problemlərini həll edərdi. Yaqub müəllim sərt göründüyü qədər də mülayim, ürəyiyumşaq və xeyirxah bir dekan kimi yaddaşlarımızda qalmışdır.

Biz magistraturada oxuyan zaman, 2004-cü ildə Yaqub müəllim AMEA A.A.Bakıxanov adına Tarix İnstitutuna direktor təyin edildi və Bakı Dövlət Universitetinin Tarix fakültəsinin dekanı vəzifəsindən ayrıldı. Mən 2005-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinin magistratura pilləsini fərqlənmə ilə bitirib, 2006-cı ildə doktoranturaya daxil oldum, 2009-cu ildə "Şimali Azərbaycan məsələsi Türkiyə-Rusiya münasibətlərində (1917-1922-ci illər)" mövzusunda dissertasiyanı müvəffəqiyyətlə müdafiə edib tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görüldüm. Bir neçə il Bakı Dövlət Universitetində və Azərbaycan Universitetində pedaqoji fəaliyyətlə məşğul oldum. 2013-cü ildə Yaqub müəllim məni Akademiyaya dəvət etdi. 2011-ci ildə çapdan çıxmış "Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922)" adlı kitabımı çox yüksək qiymətləndirən Yaqub müəllim təkidlə məni elmi fəaliyyətlə məşğul olmağa və doktorluq dissertasiyası yazmağa dəvət etdi. Beləcə, 2014-cü ildə Tarix İnstitutunda elmlər doktorluğu hazırlığı üzrə dissertanturaya qəbul olundum. Bundan sonrakı elmi fəaliyyətim Yaqub müəllimin nəzarəti altında, onun elmi məsləhətçiliyi ilə davam etdi. Məhz Yaqub müəllimin tövsiyəsi ilə "Birinci dünya müharibəsi illərində Osmanlı imperiyasının Azərbaycan siyasəti" mövzusunda doktorluq dissertasiyası üzərində işləməyə başladım. Dissertanturada oxuduğum zaman paralel olaraq həm də Azərbaycan Universitetində pedaqoji fəaliyyətlə məşğul olduğumdan dissertasiya işimi yazmağa çox vaxt sərf edə bilmirdim. Elmi işimin ləngidiyini görən Yaqub müəllim tövsiyə etdi ki, hələlik pedaqoji fəaliyyətdən ayrıl, elmi işini bitir. Çünki bu iş Tarix elmimiz üçün çox böyük aktuallıq kəsb edir. Pedaqoji fəaliyyətlə məşğul ola-ola bu işi yazıb bitirmək mümkün olmayacaq. Mən də Yaqub müəllimin tövsiyəsi üzrə hərəkət etdim, universitetdən ayrıldım və bütün diqqətimi dissertasiya işinə yönəltdim. Dissertasiyamı vaxtında bitirib müzakirəyə təqdim etdim. Əslində, belə demək mümkünsə, Yaqub müəllim bu işi təkidlə mənə yazdırdı. Məni hər gördüyündə işin nə yerdə olduğunu soruşur və tezliklə işi yazıb bitirməyimi tövsiyə edirdi. Həmçinin elmi işimlə bağlı əsas arxiv sənədləri Türkiyə arxivlərində olduğundan ezamiyyətə getməli idim. Yaqub müəllim məni ehtiyac duyduğum ezamiyyətələrə göndərdi. Dissertasiya işimi yazıb başa çatdırmağım üçün nə dəstək lazımdırsa, Yaqub müəllim bu dəstəklərin hamısını mənə verdi. Bir sözlə, doktorluq dissertasiyamı yazıb başa çatdırmağımda mənə elmi məsləhətçilik etməklə, dəyərli tövsiyələr verməklə, yol göstərməklə yanaşı, həmçinin hərtərəfli dəstək olan, diqqət və qayğı göstərən Yaqub müəllimə borcluyam. Müşahidələrimdən gördüyüm odur ki, Yaqub müəllim bu münasibəti təkcə mənə deyil, elmi potensialı olan hər bir dissertanta, doktoranta və alimə göstərir. Ömrünü Azərbaycan tarix elminin inkişafına, cəmiyyətimizin tərəqqisinə həsr edən Yaqub müəllim əsl alim və əsl ziyalı kimi hamımıza örnəkdir.

Vətənini, millətini, dövlətini sevən, görkəmli alim, akademik Yaqub müəllimi 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm və ona möhkəm cansağlığı, uzun ömür və həmişə indiki kimi uca olmağı arzu edirəm.

---

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**(Əvvəli ötən saylarımızda)**

**AĞASİYEV ŞƏMSƏDDİN**



**RƏŞİD oğlu**

12 avqust 1969-cu ildə Azərbaycan Respublikasının Cəlilabad rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Cəlilabad rayon mərkəzində yaşamışdır. Cəlilabad RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Ağasiyev Şəmsəddin Rəşid oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 15 iyun 1992-ci ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Ağasiyev Şəmsəddin Rəşid oğlu 15 iyun 1992-ci il tarixində Ağdam rayonunun Sırxavənd kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Ağasiyev Şəmsəddin Rəşid oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AĞAŞOV ZEYNAL ŞAHMƏMMƏD oğlu**



12 fevral 1974-cü ildə Azərbaycan Respublikasının Cəlilabad rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Cəlilabad rayonunun Mikayıllı kəndində yaşamışdır. Cəlilabad RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Ağaşov Zeynal Şahməmməd oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 25 aprel 1994-cü ildə Tərtər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Ağaşov Zeynal Şahməmməd oğlu 25 aprel 1994-cü il tarixində Tərtər rayonunun Seysulan kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Ağaşov Zeynal Şahməmməd oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AĞAVERDİYEV CƏMİL NURULLA oğlu**



28 avqust 1974-cü ildə Azərbaycan Respublikasının Masallı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Masallı rayonunun Güllütəpə kəndində yaşamışdır. Masallı RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Ağaverdiyev Cəmil Nurulla oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 24 aprel 1994-cü ildə Tərtər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Ağaverdiyev Cəmil Nurulla oğlu 24 aprel 1994-cü il tarixində Tərtər rayonu ərazisində 3-cü sovxoz adlanan yerdə erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Ağaverdiyev Cəmil Nurulla oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

**Ölkəmizdə və xaricdə yaşayan iş adamlarının bir qisminin şou-biznesçilərə sponsorluq etməsi, onlara bahalı evlər, maşınlar alması faktdır. Heç şübhəsiz ki, imkanlı şəxslərin şou-beznes nümayəndələrinə sponsorluq etməsi, onların reklamlarına külli miqdarda vəsait qoyması haqlı olaraq cəmiyyətdə qıcıq yaratmaqdadır.**



# Şou müğənniyə 200 minlik maşın alan oliqarx və ehtiyac içində yaşayan şəhid ailəsi...

***Xəyalə Rais:** "Hər bir iş adamı cəmiyyət qarşısındakı öhdəliklərini dərk etməlidir"*

O adamların bir çoxu, nədənsə, cəmiyyət qarşısında sosial məsuliyyətinin olduğunu qəbul etmək istəmir. Doğrudur, bu onların şəxsi vəsaitidir, lakin bu onlara əsas vermir ki, bəzi müğənnilərin həyat şəraitini yüksəltməyə çalışsın. Azərbaycan qaçqın-köçkün problemi yaşayan bir ölkədir, şəhidlərimiz, müharibə veteranlarımız, bununla belə, sosial cəhətdən ehtiyac içində yaşayan istedadlı insanlarımız var. Bu adamlar onlara heç gözünün ucu ilə də baxmır. Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı və göstərişləri ilə qaçqın və məcburi köçkün, şəhid və aztəminatlı ailələr, müharibə veteranlarının sosial rifah halının yüksəldilməsi üçün genişmiqyaslı işlər görülür, onlara evlər tikilir, qəsəbələr salınır. Doğrudur, bu layihənin həyata keçirilməsində fərqlənən iş adamları da var. Onlar Prezident İlham Əliyevin, ölkəmizin 1-ci vitse-prezidenti Mehriban Əliyevanın çağırışlarına qoşularaq burada iştirak edirlər. Öz sosial məsuliyyətini hiss etməyən iş adamları, imkanlı şəxslər isə ancaq şou-biznes adamlarına pul xərcləyirlər.

Bu gün telekanallarda və sosial şəbəkələrdə özlərinə geniş reklam quran şou-biznes nümayəndələri tez-tez bildirirlər ki, filan hacı mənə maşın aldı, o biri deyir milyarder sevgilim mənə ev aldı. Bu günlərdə ara müğənnilərindən biri televizya verilişlərindən birində Rusiyada yaşayan azərbaycanlı iş adamının ona 240 min dollara "Galenvagen" markalı maşın alıb hədiyyə etdiyini bildirib. O qeyd edirdi ki, həmin iş adamı onun pərəstişkarı olduğu üçün bu addımı atıb.

Mədəniyyətşünas **Xəyalə Rais "Bakı-Xəbər"ə bildirdi ki, bəzi iş adamlarının şou-biznesçilərə pul xərcləməsi faktdır.** O, bununla belə, qeyd etdi ki, çox zaman əksər müğənni həmkarlarına qıcıq vermək üçün ona bahalı hədiyyələr verildiyini bəyan edir. "Bilirsiniz, indi müğənnilərdən biri efirə çıxıb deyir ki, filan iş adamı mənə 200 min dollar qiyməti olan maşın alıb. Bu kimi açıqlamalar çox zaman həqiqəti əks etdirmir. Müğənnilər bu cür xəbərləri yaymaqla özləri üçün uğursuz və perspektivsiz reklam qururlar. Bunu da həmkarlarını qıcıqlandırmaq, ondan gözəl, cazibədar olduğunu demək üçün edirlər. Guya mən gözələm və mənim görün nə qədər pərəstişkarım var. Əslində, elə bu, çox zaman müğənnilərin özləri tərəfindən uydurulan yalandan başqa bir şey olmur. Elə şou-biznesçi var ki, özünün də, hətta qohum-əqrəbasının da, dost-tanışının da evini banka girov qoyub özünə kreditlə bahalı maşın alır və yalandan deyir ki, bu maşını mənə Rusiyadakı iş adamlarından biri hədiyyə edib.

*"Elə şou-biznesçi var ki, özünün də, hətta qohum-əqrəbasının da, dost-tanışının da evini banka girov qoyub kreditlə bahalı maşın alır və yalandan deyir ki, bu maşını mənə Rusiyadakı iş adamlarından biri hədiyyə edib"*

Krediti verə bilməyəndə isə "xoşuma gəlmədi satdım" deyirlər. Hətta elələri var ki, maşını dost-tanışından icarəyə götürür. Şou-biznes müğənnilərinin bir-birini qıcıqlandırmaq məqsədilə yaydıqları yalan məlumatlar haqlı olaraq cəmiyyətdə narazılıq yaradır. İnsanlar düşünürlər ki, Azərbaycanda iş adamları, imkanlı şəxslər şou-biznesçilərə verdiyi pulları imkansız ailələrin vəziyyətinin düzəlməsinə yönəltsinlər" - deyə bildirən X.Rais qeyd etdi ki, "Moskvada yaşayan azərbaycanlı iş adamı mənə bahalı maşın alıb, yaxud mənzil hədiyyə edib" deyən şou-biznesçilər sponsorlarının adlarını açıqlamağa məcbur edilməlidir.

X.Raisin sözlərinə görə, hər bir iş adamı cəmiyyət qarşısındakı öhdəliklərini dərk etməlidir. Onun sözlərinə görə, iş adamları ölkəmizdə həyata keçirilən tikinti-quruculuq işlərinə təmənnasız maliyyə vəsaiti xərcləsələr, xəstəxanalar, uşaq meydançaları, parklar saldırsalar, bir şəhid balasını sevindirsələr, müalicəyə ehtiyacı olan bir müharivə veteranının müalicəsini maliyyələşdirsələr, cəmiyyət onların işini minnətdarlıqla qarşılayar. "Çox təəssüf ki, bu gün heç də iş adamlarımızın hamısı vətənpərvər deyil. Onların çox az bir hissəsi Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətə dəstək olur, qalanlar isə öz vəsaitlərini faydalı işlərə deyil, şou-biznesçilərə xərcləyir. Məsələ burasındadır ki, şou-biznesçilərə bahalı maşın, ev alan o insanlar sosial məsuliyyətlərini anlamaq istəməyən adamlardır. Bu gün Azərbaycanda nə qədər qaçqın, köçkün, şəhid ailəsi var, ehtiyac içində yaşayan insanlar da yox deyil. Yaxşı olmazdımı ki, bu iş adamları pullarını hanısa bir müğənniyə xərcləmək əvəzinə, bu insanların qayğısına qalsınlar. O qədər savadlı, istedadlı gənclər var ki, onlar ali məktəbdə ödənişli təhsil alırlar, ailələri o pulu min bir məşəqqətlə əldə edirlər. İş adamları belə tələbələrə də dəstək ola bilərlər. Sözümün canı odur ki, iş adamlarının, imkanlı şəxslərin hamısı Prezident tərəfindən həyata keçirilən işlərə dəstək olsun. Onlar ölkə başçısının, respublikamızın 1-ci vitse-prezidenti Mehriban Əliyevanın çağırışlarına qoşulmalıdırlar. Hər bir iş adamı Azərbaycan cəmiyyəti qarşısında sosial məsuliyyətini dərk edərək, ölkənin sosial rifahı naminə çalışmalıdır" - deyə X.Rais qeyd etdi.

*İradə SARIYEVA*

# Ziyadxan Əliyevdən gənc rəssamlara tikanlı-tərbiyəvi çağırış: "Bayağı yaradıcılığı modern sənət kimi gözlərə soxmayın..."

**Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi və Azərbaycan Rəssamlar İttifaqının "2 fevral" Azərbaycan gəncləri günü münasibətilə birgə təşkil etdiyi "Gənc rəssamların sərgisi"ni giriş sözü ilə açan Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağali İbrahimov Rəssamlar İttifaqının gənclər siyasətindən, onlarla aparılan işlərdən, onların yaradıcılıqlarının layiqincə dəyərləndirilməsindən və gələcək fəaliyyətlərinin istiqamətləndirilməsi perspektivindən ətraflı söz açıb.**

O qeyd edib ki, bu sərgidə 180-nə yaxın gənc rəssamın elə o qədər də müxtəlif mövzulu, müxtəlif janrlı əsəri nümayiş etdirilir.

Gənclər və İdman Nazirinin müavini İntiqam Babayev və Mədəniyyət Nazirliyinin nümayəndəsi Qalib Qasımov da fikirlərini bildiriblər.

Azərbaycan Rəssamlar İttifaqının "Tənqid və sənətşünaslıq" bölməsinin müdiri, Əməkdar incəsənət xadimi, Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Rəssamlıq Akademiyasının dosenti Ziyadxan Əliyev bildirib ki, sovetlər dönəmində sahələr üzrə (elmi-texniki, bədii və s.) xüsusi şuralar fəaliyyət göstərərdi. Yaradılan əsərlər bu şuralarda müzakirə edilər, istər siyasi-ideoloji, istərsə də elmi, sənəti yönümdən dəyərləndirilər, bundan sonra ən yaxşıların yaxşısı ictimaiyyətə təqdim olunardı:"Etiraf etməliyəm ki, mükəmməl sənətin ortaya çıxmasında bu şuraların çox böyük əhəmiyyəti olurdu. Lakin indi bu şuralar yoxdur, "senzura"lar ləğv edilib. Əlbəttə, bu çox yaxşıdır. Çünki bədii yaradıcılıq, bütövlükdə incəsənət yaradıcılığı hər hansı bir çərçivəyə sığmaz. Əgər bu çərçivələnərsə onda o öz dəyərini itirər. (Söhbət ideologiya çərçivəsindən gedir, təbii ki, hazır əsərin taxta çərçivəyə salınmasından yox). Amma bu o demək deyil ki, kim ağlına nə gəlirsə işləyib, millətin, xalqın gözünə, şüuruna təpməlidir. Əlbəttə yox. Çünki biz elə bir millətin, xalqın nümayəndəsiyik ki, milli-mənəvi, mədəni-əxlaqi dəyərləri on min illərdən bəri süzülüb gəlir… Ona görə də bizim bədii şuramız, "senzu-



ra"mız daxilimizdən gələn ali mənəviyyatımız, əxlaqımız, ən başlıcası isə vicdanımız olmalıdır. Yad ünsürlərin nə əxlaqımıza, nə də yaradıcılığımıza yaxın düşməsinə imkan verməliyik. Gənclik həyatın elə bir dövrüdür ki, bu vaxtlar gənc insan ağılın, idrakın yox, hissin, duyğunun, görüntünün ardınca daha çox qaçır. Ona görə də hamınıza diqqətli olmağı tövsiyə edirəm. Yaradıcılığınıza eybəcərliyi, bayağılığı gətirib, onları "modern" sənət kimi təqdim etməyin. Bu gün onu bir qrup toplum, kütlə qəbul etsə də, müəyyən vaxtdan sonra elə o kütlənin, toplumun özü onu inkar edəcək. Ona görə ki, bayağılıq, eybəcərlik bizim xalqın milli kökündə, qanında, genində yoxdur. Belə yadlardan gələn ünsürləri bu qan, bu gen zaman-zaman təmizləyib özündən kənara atacaq… Çox istərdim ki, yaradıcılığımızı milli ruhumuza kökləyəsiniz. Əminəm ki, ən böyük nailiyyətiniz də məhz onda olacaq. Sözümün sonunda təklif edirəm ki, sənətşünaslarla gənc rəssamların müntəzəm görüşləri keçirilsin. Düşünürəm ki, bu görüşlər gənc sənətkarların yaradıcılığının formalaşmasında böyük əhəmiyyət kəsb edər… Bir daha hamınızı təbrik edirəm. Uğurlar olsun!.."

Sonra Azərbaycan Rəssamlar İttifaqının "Gənclər" bölməsinin müdiri, Azərbaycan Rəssamlıq Akademiyasının professoru, əməkdar incəsənət xadimi Tahir Məmmədov çıxış edərək, gənc rəssamları bu əzəmətli sərgilərinə və "2 fevral" gününə görə təbrik edib.

**REDAKSİYADAN: Xəbər ARİ-nın üzvü Binnət Hümbətoğlunun irihəcmli məqaləsi əsasında hazırlanıb.**

## "Azercell" növbəti dəfə "Socially devoted" sertifikatına layiq görülüb

**Telekommunikasiya bazarında liderliyini qoruyan "Azercell" müştəri xidmətləri sahəsində də innovativ ideya və həll yolları ilə hər zaman seçilir. 2018-ci ilin IV rübündə "Azercell"in sosial şəbəkədə göstərdiyi aktivliyi "Socialbakers" şirkəti tərəfindən dəyərləndirilib və "Azercell" "Socially devoted" sertifikatına layiq görülüb.**

Beləliklə, "Socialbakers" şirkətinin apardığı araşdırmaya əsasən, "Azercell" rəsmi "Facebook" səhifəsində istifadəçilərin ünvanlandırdığı sualları operativ şəkildə cavablandıraraq, 99% nəticə əldə edib. Nəzərinizə çatdıraq ki, 2012-ci ildə "Facebook" səhifəsində nümayiş etdirdiyi fəallığa görə "Azercell" ölkədə "Socially devoted" adına layiq görülmüş ilk mobil operator olub. Qeyd edək ki, "Azercell Telecom" MMC ölkəmizdə sosial şəbəkələrdə rəsmi səhifə və onlayn rejimdə çalışan müştəri xidmətləri yaradan ilk mobil operatordur. Bu yeniliklərin tətbiqində şirkətin məqsədi abunəçilərlə daha sıx əlaqənin qurulması, onlara tətbiq etdiyi yeniliklər, tarif və kampaniyalar, keçirilən sosial layihələr və xidmətlər haqqında ən son xəbərlərin operativ çatdırılmasıdır. Hazırda "Azercell" abunəçiləri "Facebook", "Twitter", "Disput.Az", "Google+", "YouTube" və "Instagram" sosial şəbəkələrinin imkanları vasitəsilə yüksək keyfiyyətli xidmətdən yararlana bilir. Sosial şəbəkələrdə abunəçilər şirkətlə əlaqə qurub, ən qısa zamanda ehtiyacı olan məlumatları əldə edib və müraciətlərinin həllini tapma imkanına malikdirlər. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

**Ağa Abdullaoğlu, Cavid Abbasov, Xətayə Xasməmmədova, Lətifə Allahverdiyeva, Yasim Rüstəmov, Yavər Əbülhəsənov, Zeynal Piriyev, Rakidə İlham, Baba Babayev, Rəşad və Elnur bəy Əlifağa Məmmədova anası Qızqayıt xanımın vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin.**

## Elan

Ağaşova Günel Akif qızının adına, Bakı şəhəri, Nizami rayonu, Bəhruz Nuriyev 2383/87, mənzil 238-ə "RUH" MTK tərəfindən verilmiş evin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Səfərov Anar Sahib oğluna məxsus kassa aparatı itdiyi üçün etibarsız sayılır.

№ 25 (3923) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

7 FEVRAL 2019-cu il

www.baki-xeber.com



## Öz-özünә böyüyә bilәn robot yaradılıb

2014-cü ildә İtaliyanın Genua şәhәrindә Elmi Araşdırma Mәrkәzinin tәdqiqatçılarından ibarәt komanda "Plantoid" adlı ağac yaradıb. "Fins.az" bildirir ki, tamamilә 3D-printerdә çap edilәn bu ağac temperatur, nәmlik sensorları vә kimyәvi maddәlәrin yayılmasını müәyyәnlәşdirәn kiçik cihazlarla tәchiz edilib. Bir neçә ildәn sonra komanda növbәti qәribә ixtirası - sarmaşıq kimi üfüqi obyektlәr üzәrindә hәrәkәt edәn robot barәdә danışıb. Qeyd edilәn robotun hansı şәkildә faydalı olacağı hәlә aydın deyil, amma maraqlı tәkliflәr sәslәndirilib. Sarmaşıq robot polietilenterftalat adlı termoplastik polimerdәn hazırlanmış elastik boruya oxşayır. Onun enerjiyә çox ehtiyacı olmadığı üçün 1,3 voltluq batareyalar da kifayәt edir. Boru yüksәk ion tәrkibli maye ilә doludur. Robota enerji verilәndә bu ionlar borunun aşağı hissәsinә cәlb olunur vә konstruksiyanı sıxır. Enerji kәsilәndә isә robotun gövdәsi yenidәn açılır. Tәdqiqatçılar hesablayıblar ki, robotun sәrbәst hәrәkәt etmәsi üçün onun gövdәsinin qalınlığı 1 millimetrdәn çox olmamalıdır. Hal-hazırda robot heç bir sahәdә tәtbiq olunmur. Ola bilsin, gücünün az olması vә sistemin son dәrәcә incә olması buna sәbәb olub. Hesab edilir ki, gәlәcәkdә bu cür robotlar kәşfiyyatda faydalı ola bilәr. Hәmçinin ehtimal etmәk olar ki, bu cür konstruksiya qol saatları kimi mobil cihazların bir hissәsinә çevrilәcәk. Mәsәlәn, saatların kәmәrlәri öz-özünә uzana bilәcәk. Bu, komandanın yeganә layihәsi deyil. Onlar artıq "Growbot" adlı robot üzәrindә işә başlayıblar. Bu robot әtraf mühitdәn asılı olaraq böyümәk qabiliyyәtinә malikdir. Üstәlik, alimlәr iddia edirlәr ki, o, sәthlәrin növünü tanıya bilәcәk.

## Sibir dağlarında tapılmış 4,5 milyard yaşlı daş satışa çıxarılır

**Sibir dağlarına düşәn ürәk şәklindәki 4,5 milyard yaşlı meteor Sevgililәr Günü münasibәti ilә hәrraca çıxarılacaq.**



"Publika.az" xәbәr verir ki, daşın satışını hәyata keçirәn "Christies" auksion evi meteoritin ürәk şәklindә olmasından dolayı 14 fevral Sevgililәr Günündә satılacağını açıqlayıb. Ürәkvari meteoritin xaricindә, eyni regionda yerlәşәn 40-a yaxın meteor daşları da 6-14 Fevral arasında satışa çıxarılacaq. Meteorit parçalarının ümumilikdә 300 min ilә 500 min dollar gәlir gәtirәcәyi proqnoz edilir. Xatırladaq ki, sözügedәn meteor 12 fevral 1947-ci ildә Sovetlәr Birliyi zamanında atmosferә girib parçalanaraq ürәk formasını alıb. Daş Sibirin Sihote-Alin bölgәsindә tapılıb. Atmosferin tәsiri ilә yüzlәrlә hissәyә ayrılan meteoritin parçaları rus geoloqları tәrәfindәn 5 gün müddәtindә toplanıb. Daşların tәrkibinin 94% dәmir, 5,5% nikel vә 0,38% kobalt olduğu müәyyәn olunub. Hadisәyә şahid olan Korney Şvets 1996-ci ildә Amerika mәtbuatına verdiyi müsahibәdә hadisәni belә şәrh etmişdi: "Bir kütlәnin aşağı doğru süzüldüyünü gördük. O vaxt anam vә qardaşımla sobada çalışırdıq vә şkafın şüşәlәrinin silkәlәndiyini xatırlayıram. 17 yaşım vardı. Gördüyümüz şeyin ABŞ-ın atom bombası olduğunu güman etdik vә çox qorxduq. Çünki 2 il әvvәl Xirosimaya atom bombası atılmışdı".

## 1200 illik, 17 vәrәqli İncili satanlar әlә keçdi



**Türkiyәnin Diyarbәkir şәhәrindә Qaçaqmalçılıq vә Mütәşәkkil Cinayәtkarlıqla Mübarizә İdarәsinin keçirdiyi әmәliyyat nәticәsindә 1200 illik İncil әlә keçib.**

"Axar.az" xәbәr verir ki, idarә sözügedәn müqәddәs kitabın şәhәrin Qarapınar mahallında 3 şübhәlidәn götürüldüyünü açıqlayıb. Mәlumata görә, şübhәlilәr üzәrindә qızılla işlәmә olan dini kitabı satmağa çalışıblar. Kitabın 17 vәrәqdәn ibarәt olduğu bildirilib. Diqqәt çәkәn nüans isә İncilin üzәrindә "Davud ulduzu" adlanan işarәnin әks olunmasıdır.

## Xәstәliklәri diaqnoz edә bilәn "ağıllı" köynәk

**Geyilә bilәn texnologiya hәr gün inkişaf edir, hәr gün hәyatımızın içinә daha çox inteqrasiya olmağa başlayır. Geyilә bilәn texnologiya mәhsullarından bir dә, bәlkә dә әn çox işimizә yarayacaq olanı "Samsung" tәrәfindәn hazırlanır.**

"Samsung" şirkәti smartfon vasitәsilә xәstәliklәrin müәyyәn edilmәsinin mümkün ola bilәcәyi, içindә sensorlar olan köynәk hazırlamağı düşünür. "LetsGoDigital" portalının xәbәrinә görә, sensorlar istifadә edilәrәk ağciyәr funksiyaları üzәrindә geniş diaqnozlar qoyula bilir. Sәtәlcәm, bronxit vә xroniki ağciyәr xәstәliklәri dә daxil olmaqla, bir çox xәstәliyin diaqnozu edilә bilir. Doğru diaqnoz qoyula bilmәsi üçün dә istifadәçinin yaşı, cinsiyyәti, ağırlığı vә boyu, tibbi keçmişi birlikdә hesaba köçürülür. Sensorlarla telefona qoşulur vә istifadәçi özünә qoyulan diaqnozu görә bilir. Bütün bunlara әlavә olaraq, köynәkdә olan sensorlar fәrqli növdәki paltarlara da inteqrasiya edilә bilir. Bu an üçün hәmin "ağıllı" paltarların nә vaxt bazara çıxacağı bilinmir.

## Titan kimi güclü metal taxta...

3 fәrqli universitetin araşdırmaçılarının ortaq araşdırması ilә, dünyanın әn yüngül vә әn güclü materiallarından biri hazırlanmış ola bilәr. Penn Universiteti, İllinoys Universiteti vә Kembric Universiteti nәzdindә araşdırmaları davam etdirәn alimlәr olduqca güclü vә bir o qәdәr dә yüngül bir material hazırlamaq üzrәdirlәr. Bu material әn az titan qәdәr güclü vә titandan әn az 4-qat daha yüngüldür. "Deyerler.org" bildirir ki, elm adamları tәrәfindәn hazırlanan bu materialın әn әhәmiyyәtli xüsusiyyәti isә, nano ölçüdә mәsamәlәrә malik olmasıdır. Bunun nәticәsindә bu materialın boş sahәlәri, bir başqa materialla da doldurula bilir. Bunun sayәsindә, mәsәlәn, anod vә katod vasaitlәrilә bir tәyyarә qanadına, әlavә bir batareyaya ehtiyac duymayan bir protez ayağına qәdәr ağla, xәyala gәlmәyәn bir çox fәrqli әmәliyyat üçün istifadә edilә bilәr. Bundan әlavә, bu materialdakı boşluğun 70%-i su ilә doldurulur vә içindәki materialın da üzmәsi tәmin edilir. Yüngüllük, elastiklik, möhkәmlik kimi bir çox xüsusiyyәti ilә ehtiyac duyula bilәcәk sahә sayı da artmış olur.





**Qoç** - Peşә fәaliyyәti sahәsindә problemlәr ola bilәr. Kiçik, amma xoşagәlmәz, başladığınız işi başa çatdırmağa maneәlәr yaradan müşküllәrlә qarşılaşacaqsınız. İşdә hәmkarlarla dil tapırsınız.



**Buğa** - Günün ilk yarısı işlәr üçün çox uğurlu vaxtdır. İmkanlardan maksimum istifadә edin. Emosional problemlәri hәll edin, maneәlәr vә komplekslәri dәf edin. Hәr şey asanlıqla әldә olmasa da, sәy göstәrin.



**Əkizlәr** - Ehtiyatlı davranın. Çәtin vә qarışıq gündә intriqa qurbanı olmayın. Eksperimentlәr aparmayın, yoxlanmış vasitә vә metodlardan istifadә edin. Çox sadә vә asan tәsir bağışlayan hәllәr dürüst ola bilәr.



**Xәrçәng** - f'al olun, amma enerjinizi doğru istiqamәtә yönәldin. Xoşagәlmәz vәziyyәt, münaqişә vә toqquşmalar yaratmayın. Problemlәrin daha bir sәbәbi özünüzә vә әtrafınızdakı insanlara çox tәlәbkar olmağınızdır.



**Şir** - Birgә layihәlәrdә vә ümumi işlәrdә fәal iştirak edin. Qәfil, amma xoş görüş ola bilәr. Yaşam arealındakı dәyişikliklәrdә fayda var. Yeni maraq yarana bilәr. Alış-veriş üçün sәrfәli gündür.



**Qız** - Baş verәnlәrә rәğmәn sakit olun. Emosiyaların әsiri olsanız, gün uğursuzluqla nәticәlәnәcәk. İnadkarlığınız mәntiq çәrçivәsindәn kәnara çıxaraq әtrafınızdakı insanları pәrişan etmәsin.



**Tәrәzi** - Mәnasız xәrclәr etmәyin, tәlәsik vә yanlış addımlar atmayın. Tәmkinli, soyuqqanlı olun, aram davranın. Peşәkar fәaliyyәt müstәvisindә vә maliyyә mәsәlәlәrindә yaxşı tanımadığınız insanlara çox inanmayın.



**Əqrәb** - Ünsiyyәt vә yeni tanışlıqlar üçün yaxşı gündür. Diqqәt mәrkәzindә ola bilәrsiniz. Çalışacağınız insanı seçin. İntuisiyanız sizә yardım edәcәk. Bilik vә bacarıqlarınızı nümayiş etdirin.



**Oxatan** - Gün uğurlu vә yaxşıdır. Nailiyyәtlәriniz gözlәdiyinizdәn dә yaxşı vә önәmli olacaq. Xoş hәmsöhbәt, diqqәtli dinlәyici olun. Yeni tanışlıqlarla yanaşı, köhnә dostlarla ünsiyyәt üçün yaxşı gündür.



**Oğlaq** - Gün problemlәrdәn xali olmasa da, çәtinliklәrin öhdәsindәn gәlәcәksiniz. İntuisiyanız çox güclüdür vә buna görә dә әn çәtin suallara cavab tapacaqsınız. Əks cins mәnsubu ilә münasibәtlәrdә rәvanlığı qorumaq çәtindir.



**Dolça** - Ekstraordinar, qeyri-adi heç nә etmәyin. Yaxınlarınız sizә yardım edәcәklәr. Sadәcә, özünüz olun, tәbii davranın. Belә olarsa, işlәrinizdә ciddi çәtinliklәr yaranmayacaq. İşgüzar görüşlәr pis keçmәyәcәk.



**Balıqlar** - Sәhәr saatlarından etibarәn faydalı işlәrlә mәşğul olmağa çalışın. Günün faydalı olmasına can atın. Vaxtınızı mәnasız işlәrә sәrf etmәyin. Maliyyә mәsәlәlәrinin öhdәsindәn asanlıqla gәlәcәksiniz.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## İstilikdәn elektrik yaradan kağız

**Elm insanları, bakteriya vә nano balon istifadә edәrәk elastik vә çevrilә bilәn termoelektrik kağız yaratmağı bacardı.**

Bu kağız tullantı istilik enerjisini elektrikә çevirir vә enerji itkisini geri qazanmanı tәmin etdiyindәn sәmәrәsini artırır. Barselona Vәsait Elmlәri İnstitutunda (ICMAB-CSIC) elm insanları bakteriyalardan selluloza alaraq bunu karbon nano balon vasitәsilә birlәşdirәrәk, yeni bir mәhsul aldı. Araşdırmaçılar selluloza liflәri sayәsindә dayanıqlı, elastik vә forma ala bilәn bir material hazırlayarkәn, karbon nano balonlar sayәsindә yüksәk elektrik keçiriciliyi әldә etdilәr. Belәcә, әtrafa qarşı çox zәrәrli olmayan, yenidәn istifadә edilә bilәn bir maddә yaratdılar. Bundan әlavә, bu yeni maddәnin, digәr sintetik polimerlәrlә müqayisәdә daha çox istilik dözümü var. 250°C çatan istiliklәrә qәdәr dözdüyü ifadә edilir. Materialın qalınlığı, rәngi vә şәffaflığı da idarә edilә bilir. Nano balon miqdarının artması maddәnin dayanıqlığını vә elastikliyini dә artıraraq müsbәt istiqamәtdә tәsir edir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 5200*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.